# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

28 dekabr 2023-ci il

№ 071 (3641)
Qiymәti 50 qәpik


Gün-Xəbər



## Azərbaycanda yeni icra hakimiyyəti yaradıldı

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev "Ağdərə rayonunun yaradılması haqqında" qanunu təsdiqləyib. Qanuna əsasən, 3 rayonun ərazisi hesabına Ağdərə rayonu yaradılacaq.**

Dövlət başçısı, həmçinin sözügedən Qanunun tətbiqi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.

Fərmana əsasən, Ağdərə rayonu Qarabağ iqtisadi rayonunun ərazisinə daxil edilib. Fərmanda, həmçinin Ağdərə Rayon İcra Hakimiyyəti yaradılması nəzərdə tutulub.

Qərarda Nazirlər Kabinetinə Ağdərə Rayon İcra Hakimiyyətinin fəaliyyətinin təşkili məqsədilə zəruri maliyyə vəsaitinin ayrılması və inzibati bina ilə təmin olunması üçün bir ay müddətində tədbirlər görməsi tapşırılıb. Bunun üçün hökumətə 1 ay vaxt verilib.

## Səhiyyə Nazirliyi qızılca ilə bağlı növbəti dəfə əhaliyə çağırış edib

**Qızılca xəstəliyinə yoluxan insanların simptomları uşaq və böyüklər üçün eynidir, lakin böyüklər xəstəliyi daha ağır keçirir.**

O bildirib ki, 40 yaş üzəri insanların vaxtında vurdurduğu peyvəndin üzərindən təxminən 30-40 il keçib, yaxud da bəziləri ümumiyyətlə peyvənd olunmayıb.

A.Əliyeva xatırladıb ki, qızılcadan qorunmağın ən effektiv yolu peyvənddir: *"Peyvənd olunmayan hər yaşda insan qızılcaya tutula bilər. Peyvənd iki doza olmaqla 1 və 6 yaşında vurulmalıdır. 6 yaşdan böyük uşaqlar üçün 4 həftə ara verməklə iki doza halında peyvənd vurula bilər".*

# Fransa iki diplomatımızı "arzuolunmaz şəxs" elan etdi



**Fransa Azərbaycan səfirliyinin iki diplomatını "arzuolunmaz şəxs" (persona non grata) elan edib.**

**Bu barədə AFP məlumat yayıb.**

**Məlumata görə, Fransa bu barədə Azərbaycanın qərarına cavab olaraq addım atıb.**

**Qeyd edək ki, dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

**Fransa Səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərinə görə ciddi etiraz bildirilib və onların Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb.**

**Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib və XİN-in müvafiq etiraz notası Fransa səfirinə təqdim edilib.**

## Təhsilə ayrılan dövlət vəsaitini mənimsəmək əxlaqsızlıqdır



**İnkişaf etmiş dövlətlər elm və təhsilə sərmayə qoymaqla irəli gediblər**

Səh.3

## Səbrin hədəfi - ətalət, yoxsa mətanət?!



**Səbr: Fəlsəfi məğzi, dini-əxlaqi mahiyyəti və üstün fəzilətləri**

Səh. 12

## Oyuncaq cəmiyyət



**Arayik özünü Azərbaycan vətəndaşı hesab edir?**

Səh. 5



**Professor Qulu Məhərrəmli:**

## ”Jurnalistin, media subyektinin yayılmış xəbərdən istifadəsi məsuliyyət yaratmır”

Professor Qulu Məhərrəmli ”Təzadlar.az”-ın jurnalistinin sualını belə cavablandırıb ki, sosial platformalarda statusu olan fiziki və ya hüquqi şəxs tərəfindən aşkar formada yayımlanmış hər hansı bir məlumatı və ya mətni elektron, yaxud çap mediasında yaymağa görə jurnalistlərin, media subyektlərinin məsuliyyət daşıyıb- daşımamasına belə aydınlıq gətirdi:

- Jurnalistin sosial mediadan hər hansı bir məlumatı götürüb elektron və yaxud çap mediasında yayması təbii haldır. Çünki sosial platformalardakı məlumatlar gizli və ya qadağan olunmuş deyil, açıq məlumatlardır. Bu məlumatlar jurnalistlər üçün istənilən formada ilkin mənbə funksiyasını daşıyır. Əgər hər hansı məmur, vəzifəli şəxs və ya hüquqi şəxs - QHT, İctimai Birlik, təşkilat rəhbəri, eləcə də ictimai diqqətdə olan tanınmış şəxsin və s. ictimailəşdirdiyi bu məlumatlarda ictimai əhəmiyyət daşıyan məsələlər varsa, jurnalistin onu təhrif etmədən yaymasında heç bir hüquqi məsuliyyəti yoxdur, ola da bilməz. Düzdür, burda etik nüanslar da var ki, məsələn, mümkün qədər həmin məlumatları yayan şəxsə müraciət də etmək olar ki, sizin yaydığınız informasiya bizim üçün ciddi maraq kəsb edir və s.

Amma bütün hallarda bu məlumat artıq ictimailəşdirilibsə və təkzib edilməyibsə, sonradan onu yayan jurnalist niyə də məsuliyyət daşımalıdır! Axı ilkin mənbə məlumdur, aşkardır və gizli deyildir. Ona görə də belə hallarda jurnalistin üstünə getmək olmaz və əksinə, bu mövcud qanunvericilikdə də təsbit olunduğu kimi, jurnalistin peşə fəaliyyətinə, onun sərbəst şəkildə məlumat toplamaq və yaymaq kimi konstitusion hüquq və vəzifələrinə qarşı çıxmaqdır, bu da hüquqi məsuliyyət yaradır. Bir daha deyirəm, günümüzün mövcud reallığıdır ki, sosial media jurnalislərin ilkin informasiya mənbəyidir, statusu olan, tanınmış, ictimai diqqətdə olan şəxslərin sosial platformalarda yayımladığı məlumatlar və faktlar bunları yazılarında istifadə edən, yayımlayan jurnalistlərə heç bir hüquqi və digər məsuliyyət yaratmır. Həmçinin, həm də yaxşı olar ki, jurnalist zərurət bilərsə, əlaqəli şəxs və ya şəxslərlə əlaqə saxlayıb yayımlanmış məlumatları daha ətraflı öyrənə, məlumatlarını zənginləşdirə bilər. Belə olarsa, hazırlanan məqalə daha peşəkar formada olar. Bütün bunlarla yanaşı, bir daha deyirəm, sosial platformalarda statuslu şəxslər tərəfindən aşkar formada yayımlanmış, təkzib edilməmiş məlumatları elektron və ya çap mediasında yayımlamağa görə jurnalist məsuliyyət daşımır...

# PUTİN NİYƏ ƏLİYEV-PAŞİNYAN GÖRÜŞÜNƏ QATILMADI?

Ermənistan tərəfinin rəsmi məlumatına görə, Sankt-Peterburqda İlham Əliyevlə Nikol Paşinyan arasında qeyri-rəsmi görüş keçirilib. Tərəflər sülh gündəliyini müzakirə edib. Bu, Qarabağda erməni separatizminin ləğvindən sonra tərəflər arasında ilk görüşdür.



Bu fikirləri politoloq Asif Nərimanlı öz ”facebook” səhifəsində yazıb.

*“Əsas diqqətçəkən məqam görüşün ikitərəfli formatda keçirilməsi, Putinin iştirak etməməsidir. Görünür, Sankt-Peterburqdan sonra Qərbin görüş təşkilində israr edəcəyi gözləntisinə qarşı üçüncü tərəflərin prosesdə iştirak etməməsi prinsipi qorunub. Putin üçün hazırda əsas olan görüşün Rusiyada baş tutmasıdır”* - deyə, politoloq bildirib.

Qeyd edək ki, 26 dekabrda Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi sammiti baş tutub.

**Elman**

# "Azərbaycanın qələbəsi bütün türk dünyasının qələbəsidir"

**Azərbaycanın qələbəsi bütün türk dünyasının qələbəsidir. “Report” xəbər verir ki, bu barədə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Bakıda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirilən qəbulda bildirib.**



A.Raimkulova fondun yaradılması təşəbbüsünə görə Azərbaycan Prezidentinə təşəkkür edib, ərazi bütövlüyünün və suverenliyinin tam bərpası münasibətilə Azərbaycan xalqını təbrik edib.

*“Həmçinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi, o cümlədən Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi kimi əlamətdar tarixlər münasibətilə bütün türk dünyasını təbrik etmək istərdim. Və əlbəttə ki, bir daha Azərbaycan xalqını Vətən müharibəsində qazanılan böyük qələbə münasibətilə təbrik etmək istəyirəm. Qarabağ Azərbaycandır! Azərbaycanın qələbəsi bütün türk dünyasının qələbəsidir”*, - o deyib.

# Vərəsəlik hüququ barədə mühüm qərar

Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, iclasda Ali Məhkəmənin sorğusu əsasında Mülki Məcəllənin 1246-cı və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.



Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlər Ali Məhkəmənin və Milli Məclis Aparatının mülahizələrini, Bakı Apellyasiya Məhkəməsinin, Sumqayıt Apellyasiya Məhkəməsinin, Vəkillər Kollegiyasının və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru S.Süleymanlının, Martin Lüter adına Halle-Vittenberq Universitetinin Beynəlxalq iqtisadi hüquq və müqayisəli hüquq üzrə professoru A.Əliyev və Azərbaycan Diplomatik Akademiyasının və Martin Lüter adına Halle-Vittenberq Universitetinin birgə doktorantura layihəsi çərçivəsində doktorantı N.Rəsulzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246-cı və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.

Mülki Məcəllənin mirasın qəbulu institutunun tələblərindən irəli gələn hüquqi tənzimləmələrin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilib.

Konstitusiya Məhkəməsinin Qərarında bildirilir ki, mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibətlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Təhsilə ayrılan dövlət vəsaitini mənimsəmək əxlaqsızlıqdır

## İnkişaf etmiş dövlətlər elm və təhsilə sərmayə qoymaqla irəli gediblər



*Tapdıq ABBAS*
*Təsisçi,*
*"Əməkdar mədəniyyət işçisi",*
*Pedaqoji fəlsəfə doktoru,*
*Qarabağ müharibə veteranı*
*t.abbas1952@list.ru*

**Dünyanın ən güclü dövləti ABŞ-dır, bu dövlət elm və təhsili daim diqqət mərkəzində saxlayır. ABŞ prezidenti bu ilin dekabr ayında 2024-cü maliyyə ili üçün 6,883 trilyon dollar məbləğində xərcləri nəzərdə tutan federal büdcə layihəsini senata təqdim edib. Senat xırda dəyişikliklərlə büdcə layihəsini təsdiq edib.**

Artıq 2024-cü il üçün təsdiq edilən büdcədə ABŞ təhsilə 545 milyard dollar (Azərbaycanda bu rəqəm müqaisə edilməz dərəcədə azdır), hərbi büdcəyə isə 886 milyard dollar pul ayırıb. Göründüyü kimi, hər bir güclü dövlət daim elm və təhsilin inkişafına böyük həcmdə vəsait qoyur. Eləcə də Çin və digər super dövlətlərin hər birinin 2024-cü il büdcəsinə nəzər saldıqda eyni mənzərəni seyr edirik.

Azərbaycanda 2024-cü il büdcəsinə nəzər salarkən elm və təhsilə ayrılmış büdcə vəsaitlərinin bölgüsündə təhsil sahəsinin inkişaf etdirilməsi üçün ayrılan büdcə vəsaitinin azlığı hər birimizi narahat edir. Mövzunu təhlil edib, hesabladıqca, ölkədə təhsilə ayrılan pul vəsaitinin kifayət qədər olmasına baxmayaraq, (4549,9 milyon manat, büdcədə xüsusi çəkisi 12,5 faiz) bu qədər pul vəsaitinin xərclənməsi hara, təhsil sahəsində əldə edilən zəif "tısbağa" sürətli inkişaf hara, təbii ki, bu cür zəif nəticə ilə razılaşmaq mümkün deyil.

Təhsil sahəsində bu cür zəif nəticələr əldə olunmasının bəzi səbəbləri məlum olsa da, gəlin, az da olsa, onları bir də nəzərdən keçirək. Əvvala, son 20 ildə ölkə Prezidenti təhsilin sürətli inkişafını təmin etmək məqsədilə ard-arda təhsil islahatları həyata keçirib. Bu, müsbət tendesiyadır. Lakin bu cür müsbət addımlarla yanaşı, Təhsil nazirlərinin tez-tez dəyişməsi təhsil sahəsində başlanılan bütün islahatların yarımçıq qalmasına səbəb olur. Bu da özlüyündə təhsilin inkişafına mənfi təsir edir..

Son 15 il ərzində 3 dəfə Təhsil naziri dəyişilib! Özü də necə?! Fikir verin, təcrübəli pedaqoq, fizika-riyaziyyat ixtisaslı akademik, təhsil naziri Misir Mərdanov vəzifədən azad edilib, onun yerinə pedaqoji təhsili olmayan Mikayıl Cabbarov gətirilib! Bu, kimə və nəyə lazım idi?! Məgər M. Cabbarovu elə birbaşa əvvəlcədən Vergilər nazirinin müavini vəzifəsinə təyin etmək daha effektli olmazdımı?! Hesab edirəm ki, M. Mərdanovu təhsil naziri vəzifəsində saxlayıb, islahatları davam etdirmək daha faydalı olardı...

Dünyada olan böyük dövlətlərin təcrübəsi göstərir ki, Azərbaycandan başqa, təhsil və digər peşəkar rəhbər tələb edən sahələrə qeyri-peşə sahiblərinin rəhbər təyin olunma praktikası yoxdur. Ali təhsil almadığı halda, hər hansı bir sahəyə rəhbərliyi heç kim üzərinə götürməz. Azərbaycanda isə qeyri - peşə sahiblərinin anlayışı belə, olmayan sahəyə rəhbər təyin olunması adi hal alıb. Götürsə də, o, işin öhdəsindən gələ bilməz və bilmirlər.

Pedaqoji təhsili olmayan Mikayıl Cabbarovun təhsil naziri olduğu dövrdə təhsil sahəsində ölkəmizin əldə etdiyi uğurlardan söz açmaq, bir kəlmə söhbət etmək belə, mümkün deyil. Çünki təhsil naziri vəzifəsinə təyin olunana qədər M. Cabbarov Bakıda fəaliyyət göstərən, təhsillə əlaqəsi olmayan yad bir sahədə - Qoruq rəhbəri sahəsində işləmişdi. Ona görə də, uzun müddət ölkənin təhsil sahəsi sahibsiz qaldı və elə indinin özündə də sahibsizdir. Çünki hazırda təhsil naziri kreslosunda oturub, təhsil nazirinin əmək haqqını alan Emin Əmrullayev də pedaqoji elmlər baxımından "ayaqyalındır". Ona görə ki, bu insan pedaqoqdan çox şoumenə bənzəyir, hələ müəllimlərin ayrı-ayrı söz və ifadələrini necə yazmalarını yamsılamaqla məşğuldur...

Hazırkı təhsil naziri Emin Əmrullayevin fəaliyyəti barədə ayrıca yazı yazmaq fikrindəyəm. İnsan kimi pis adama oxşamır, amma bir nazir olaraq çox savadsızdır, üzərində işləmir, pedaqoji anlayışlardan xəbərsizdir, köhnə biliyinə arxayındı, bazası da çox zəifdir.

Mikayıl Cabbarovdan sonra bu posta onun birinci müavini vəzifəsini tutan, hazırkı XİN rəhbəri, ixtisasca pedaqoq olmayan Ceyhun Bayramov gətirildi. Ceyhun Bayramovun da təhsil naziri vəzifəsində işlədiyi dövrdə ölkə təhsili bir addım da olsun irəli getmədi. Təhsil sistemi qayadan qopmuş parça kimi üzüaşağı yuvarlandı, nəhayət, yaranmış zərurətə görə, Təhsil naziri kreslosunu Xarici İşlər naziri kreslosuna dəyişdi. Bildiyim qədər o, bu vəzifədə daha yaxşı işləyir...

Ümummilli lider Heydər Əliyev təhsil haqqında deyirdi: "Təhsil millətin gələcəyidir, onu inkişaf etdirmədən heç nəyə nail olmaq mümkün deyil". Təəssüf ki, Ulu öndərin təhsillə bağlı nəsihətlərini, tövsiyyələrini təhsil naziri vəzifəsinin əmək haqqını alan Emin Əmrullayev unudub. Onun rəhbər vəzifələrə təyin etdiyi kadrların davranışları, əxlaqı, xüsusən regional idarələrin bəzi rəhbərləri, sektor müdirləri tutduqları vəzifənin əxlaq kodeksinə uyğun davranmırlar. Çoxu elə nazirin özünə oxşayırlar- mənəvi zənginliyi maddi zənginlikdən üstün tutaraq, rüşvət yığmaqla, mənsəbpərəstliklə məşğuldurlar...

Ölkənin təhsil sahəsində güclü inkişafa nail olmadan müsbət nəticəyə nail olmaq mümkün deyil, mütləq təhsilə münasibət kökündən dəyişməlidir. Allah sənə rəhmət eləsin, böyük Mustafa Kamal Atatürk! O, Türkiyə Cümhuriyyətinin təhsil sistemini necə qurubsa, həmin təcrübədən mütləq istifadə olunmalıdır!..

Azərbaycan elm və təhsilinin inkişafından danışarkən bu sahədə mövcud olan nöqsanlardan söz açmamaq mümkün deyil. Hazırda ölkənin bütün sahələrində hökm sürən, xüsusən təhsil sistemini tamamilə bürüyən rüşvət və korrupsiya qarşısıalınmaz reallığa çevrilib. Ölkə Prezidenti rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə aparsa da, ölkədə rüşvətin və korrupsiyanın daha da güclənməsi hiss olunur. Dövlətin bütün strukturlarını zəbt edən bu islaholunmaz bəla ölkənin təhsil sistemini iflic edib.

Apardığım araşdırmalar nəticəsində müəyyən etdim ki, Azərbaycanın təhsil sistemi təpədən dırnağa qədər rüşvət və korrupsiya ilə elə sirayətlənib ki, təhsil sistemini bu riyakar bəladan tam təmizləmək asan deyil. Problemin çətinliyi burasındadır ki, ehtiyatda əli, əxlaqı təmiz, sağlam düşüncəyə malik ziyalı komanda yoxdur, Təhsil Nazirliyinin özündə rəhbər vəzifə tutan şəxslərin əksəriyyəti bu üzdəniraq bəlaya yoluxub və onları sağlamlaşdırıb yenidən normal vəziyyətə gətirmək qeyri-mümkündür.




Təcrübədə çox sınamışam, bəzi çətin məqamlarda atalar sözü həqiqətən insanın köməyinə çatır. Məsələn, "Donuzun könlü şamda idi, it də vurdu şama saldı", "Axtardığım yar idi, yetirdi pərvərdigar", "Qızım sözü sənə deyirəm, gəlim, eşit" və sairə çoxsaylı hikmətlərin əksəriyyəti insanın normal həyat yaşamasına xidmət etdiyi kimi, tənqid də həddini aşan insanların səhv yoldan dönməsinə xidmət edir. Bu yazıda nöqsanlardan söz açmağa çalışdım, yaxşı nə varsa, olsun, bizimdir, ancaq mövcud səhvlər çoxdur və onları aradan qaldırmaq isə çox çətin olduğuna görə, sağlam tənqid həmişə lazımdır...

**Ekspertlər gözləntiləri açıqladı**

# 2024-CÜ İLDƏ ƏMLAK BAZARINDA QİYMƏTLƏR NECƏ DƏYİŞƏCƏK?

## "Qiymətlər artıq o həddə çatıb ki, insanlar əmlak almaqdan imtina edirlər"






**2020-ci ildən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin əlavə dəyər və mənfəət vergisinə cəlb edilməsi, 2021-ci ildən Rusyia-Ukrayna müharibəsi fonunda tikinti materialları bazarında baş verən qiymət artımı, həmçinin inflyasiya və digər səbəblərə görə, 2022 və 2023-cü illərdə daşınmaz əmlak bazarında qiymətlər kəskin şəkildə bahalaşıb. Ümumən isə bu proses 1990-cı ildən başlayıb və əmlak sahəsində qiymətlər hər ötən illə müqayisədə artan temp üzrə davam edib.**

Statistikaya görə, son 10 ildə paytaxtda mənzillərin qiyməti 100% bahalaşıb. Məsələn, 2013-cü ildə 60 min manata olan mənzil hazırda 120-130 min manat dəyərindədir. Ekspertlərin sözlərinə görə, 20 il əvvəllə müqayisədə 2003-cü ildə "Neftçilər" metrosu ətrafında birotaqlı mənzil 13 min manata satılırdısa, hazırda 70-75 min manat civarındadır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, daşınmaz əmlak bazarındakı qiymət artımı 2023-cü ildə də davam edib. Belə ki, 2023-cü ilin III rübündə mənzil bazarında qiymətlər 2022-ci ilin III rübünə nisbətən, 10.1% bahalaşıb. Cari ilin III rübündə ilkin mənzil bazarında qiymətlər, ötən ilin müvafiq dövrü ilə müqayisədə 7.8%, təkrar mənzil bazarında qiymətlər isə 10.1% artıb. Daşınmaz əmlak bazarının mənzil seqmentində ortalama artım tempi 20 % təşkil edib.

Digər tərəfdən, paytaxtda kirayə mənzil bazarında da kəskin qiymət artımı müşahidə olunur. Məsələn, əgər 2022-ci ildə 1 otaqlı mənzilləri 250 manata əldə etmək olurdusa, bu il qiymətlər 300-350 manat arasında dəyişir.

Bəs maraqlıdır növbəti il daşınmaz əmlak bazarında kəskin qiymət artımı gözlənilirmi? Mənzil sahibi olmaq istəyənlərin bu arzusu 2024-cü ildə nisbətən asanlaşa bilərmi?

Bu suallara cavab tapmaq üçün ekspertlərə müraciət etdik.

Bu barədə əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev şərhində bildirib ki, Azərbaycanın əmlak bazarında hər il qiymət artımı müşahidə edilir.

E. Fərzəliyev də 2023-cü ildə bu artımların pik həddə olduğunu təsdiqləyir: *"Son 2 aydır ki, əmlak bazarında ciddi müştəri qıtlığı yaşanır. Çünki qiymətlər artıq o həddə çatıb ki, insanlar əmlak almaqdan imtina edirlər. Buna maddi gücləri çatmır. Məsələn, üç il əvvəl Bakının mərkəzi rayonlarında köhnə "xurşovka" layihəli binalarda birotaqlı mənzilin ən ucuz satış qiyməti 60-70 min manat idisə, indi 90-95, hətta 100 min manat aralığında dəyişir. Həmçinin ikiotaqlı və üçotaqlı mənzillərin qiymətində də artımlar var. Eyni zamanda yeni tikili binalarda da qiymətlərin artdığını görürük. Məsələn, 5-6 il öncə Xırdalan şəhərində yeni tikili binada mənzilin bir kvadratmetri ortalama 600-700 manat aralığında idisə, indi 1000-1200 manatdır. Yəni qiymətlər iki dəfəyə yaxın artıb. Yeni tikili binalarda qiymətlərin artım səbəbi isə müxtəlifdir. Başlıca səbəb torpaq sahələrinin qalmaması və çox baha olmasıdır. Bu gün şirkətlər yeni binaları köhnə tikililərin yerində tikirlər. Bu da tikintidə maya dəyərini və nəticədə qiyməti artırır. Çünki köhnə tikili sökülən zaman orada yaşayanlara yeni bina hazır olana qədər kirayə pulları, binadan tam təmirli mənzillər verilir və s".*

Ekspert hazırkı qiymətlərin insanların büdcəsinə uyğun olmadığını deyir: *"Bu illər ərzində insanların gəlirlərində ciddi artım olmayıb. Əməkhaqları və pensiyalarda müəyyən artımlar olsa da, bu, hazırkı əmlak qiymətləri qarşısında yüksək deyil. Artıq ipoteka mənzillərinin sayı da azalıb. Əvvəlki illərdə evlərin qiyməti ucuz olanda ipoteka ilə mənzil almaq vətəndaş üçün maraqlı olurdu. Amma hazırda ipoteka kreditinin həm ilkin, həm də aylıq ödənişi çoxdur. Proqnozlara görə, yanvar ayında ipoteka kreditləri veriləcək. Həmin vaxt əmlak bazarında müəyyən canlanma yaranır. Müştəri çoxluğu səbəbindən isə qiymət artımı baş verir".*

Ekspertin sözlərinə görə, yaxın gələcəkdə əmlak bazarında stabilləşmə və qiymətlərdə enmə gözlənilir: *"Bu gün Azərbaycanda iri şəhərlər olsa da, əsas əhali axını paytaxta və müəyyən qədər də Sumqayıt şəhərinədir. Səbəb isə bəllidir. Ali təhsil müəssisələri, nazirliklər, iş yerləri kimi obyektlər bu şəhərlərdə yerləşir. Lakin nəzərə almalıyıq ki, işğaldan azad olunmuş ərazilərdə də ciddi təmir-tikinti işləri gedir. Müəyyən problemlər həll olunduqdan, proses sürətləndikdən sonra orada yeni iş yerləri, iaşə obyektləri açılacaq. Nəticə etibari ilə axın da bu bölgələr olacaq.*

*Zamanla dövlətin məcburi köçkünlərə verdiyi evlər geri qaytarılacaq, yəni ucuz qiymətə satışa çıxarılacaq. Bu proses müharibədən sonra bir dəfə baş tutub. Məcburi köçkünlər üçün tikilən 5 min mənzilli binanın yarısı şəhid ailələrinə verildi, bir qismi isə kvadratmetri ortalama 700 manatdan satışa çıxarıldı. Hazırda bu cür mənzillərin sayı on minlərlədir. Müəyyən müddətdən sonra o evlər boşalsa, paytaxta axın təbii formada azalsa, şişirdilmiş qiymətlər də aşağı düşəcək".*

İqtisadçı Xalid Kərimli isə şərhində bildirib ki, bazarda qiymətləri müəyyən edən 3 əsas faktor var.

Ekspert son vaxtlar ipoteka bazarında faizlərin artdığını deyir: *"Kommersiya bankları bir neçə ay öncə öz resurlarına görə, 7-8 faiz ipoteka krediti verirdilər. İndi o bankların ipoteka şərtlərinə baxanda görürük ki, kreditin verilmə müddət azalıb, qiymət isə 1-2 faiz artıb. İndi həmin banklar ipoteka kreditini 10-11 faizə verirlər. Kommersiya banklarının şəxsi vəsaitləri hesabına kredit verməsi bazarda əlavə tələbat yaradırdı. Bu da qiymətlərin bahalaşmasında rol oynayırdı. Amma indi ipoteka kreditləri verən kommersiya banklarının kredit faizlərinin bahalaşması bu tələbi zəiflədəcək.*

*İkincisi, Dünya Bankının növbəti il üçün əmttə proqnozlarına görə, ciddi artım gözlənilmir. Bu da onu deməyə əsas verir ki, gələn il tikinti sahəsində qiymət artımı o qədər də yüksək olmayacaq.*

*Üçüncüsü, iqtisadi artım, neftin qiymətinin yüksək həddə olacağına dair proqnozlar verilir. Bu, qiyməti artıran məsələdir".*

Ekspert bu üç amili nəzərə alaraq, növbəti il daşınmaz əmlak bazarında sürətli artım gözlənilmədiyini deyir.

X. Kərimli əlavə edir ki, Azərbaycanın əmlak bazarı kiçik olduğundan xarici faktorlardan asılılıq böyükdür.

*"Məsələn, Rusiyada 3 sahibkar gəlib buradan 2-3 məhəllə alanda qiymətlər bahalaşır. Ağ şəhərdə qiymət artımının səbəbi deyiləndə görə, Rusiyada yaşayan bir azərbaycanlının oradan iki kvartal almasıyla bağlıdır. Təsəvvür edin bu amilə görə orada qiymət artımı baş verib. Əslində bu cür tələtümlərin olduğu bazarla bağlı proqnoz vermək də xeyli çətindir"*, - deyə ekspert əlavə edib.

***E. Bəyməmmədli***

# DSMF-in məhkəmə qərarı olmadan pensiyanı azaltması özbaşınalıqdır




DSMF-in pensiya təminatına cavabdeh olan qurumlarının özbaşına , kefi istəyəndə pensiyaları kəsməsi, azaltması qanunsuzdur. "Əmək pensiyaları haqqında" qanunun 39.1 maddəsi bu özbaşınalığı qadağan edir: " Artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləği ƏMƏK PENSİYAÇISININ RAZILIĞI ilə əmək pensiyasını təyin edən orqanın qərarı əsasında, razılığı olmadıqda MƏHKƏMƏ qaydasında tutulur".

Niyə qanuna əməl edilmir? Vətəndaşın pensiyası niyə məmurun "kefinə" uyğun kəsilir ? Özbaşınalıq "kefi" o həddədir ki, hətta məhkəmə qərarı ilə ayrılan pensiyanı və pensiyaya əlavəni kəsirlər. Belə sosial təminat hüququ olar? Belə çıxır, pensiya, sosial təminat orqanları qanundan, Konstitusiyadan xəbərsizdirlər. Bu xəbərsizliyi ləğv edilən qanunla verilən əlavələrin qanunun ləğv edildiyi tarixdən kəsilməsi qanunsuzluğu sübut edir. Halbuki Konstitusiyanın 149-cu maddəsinin VII hissəsi qanunun geriyə qüvvəsinin olmadığını, yalnız şəxsin hüquqi vəziyyətini yaxşılaşdıran aktlarln geriyə qüvvəsinin olduğunu doğrulayır. Hansısa qanun ləğv olunursa, o qanun əsasında vətəndaşa tətbiq olunan güzəştlər, maddi hüquq ləğv oluna bilməz axı! Elə "Hərbi qulluqçuların pensiya təminatı haqqında" qanun 1992-ci ilin 29 aprelindən " Əmək pensiyaları haqqında" qanun 06.02.2006-cı ildə qəbul olunana kimi 14 il qüvvədə olub. DSMF məmurlarının qanunsuz məntiqinə görə, həmin 14 il qüvvədə olan qanunla verilən pensiyaya əlavələr kəsilməlidir?! Absurd deyilmi? "Əmək pensiyaları haqqında" qanunun 26.1 maddəsi də bu kəsilməni qadağan edir: "Əvvəllər təyin edilmiş pensiyanın ümumi məbləği dəyişdirilmədən ( bütün əlavələr, ləğv edilmiş güzəştlərin əvəzi kompensasiyalar və s.) şərti çevrilməsi aparılır". Bəs niyə hərbi əlillərin, qazilərin...əvvəllər təyin edilən pensiyalarından Prezidentin 26.01.2001 tarixli, 613 saylı fərmanı , 29.12.2000 tarixli, 597 saylı sərəncamı ilə ayrılan toplam 40 manatlıq və s. əlavə kəsilib və bərpasına da qadağa qoyulub? Bəs Hesablama Palatası, Maliyyə Nazirliyi, Baş prokurorluq ,( Ombudsmanın hüquq müvəkkilliyi 3-5 manat qarşılığında poçtalyonluqdan o yana keçmir) büdcənin təyinatı üzrə yox, məmurun cibinə xərclənməsinə niyə susur?

Əlillər, qazilər , veteranlar, pensiyaçılar bu özbaşınalıqdan hara getsinlər? Hara gedirlər qanunsuzluq, özbaşınalıq hökm sürür. Qazilərin, əlillərin, pensiyaçıların halına yazıq! Qanun, Konstitusiyanın ŞAH olmalı olduğu respublikada məmur özbaşınalığı qanundur!(?)

***Məğrur Bədəlsoy***

# Oyuncaq cəmiyyət

## Arayik özünü Azərbaycan vətəndaşı hesab edir?

Söhbət yenə ermənilərdən və erməni tayfasının törtöküntüləri olan Qarabağ ermənilərindən gedir. Mən həmişə o fikirlə razılaşmışam ki, bütöv bir millətə, topluma, cəmiyyətə, hətta bir rayona və ya rayonun bir kəndinə hansısa bir xarakteri şamil etmək düzgün deyil. Çox yerində işlədilən bir atalar sözümüz də var: ”Meşə çaqqalsız olmaz”. Yəni hər bir cəmiyyətin yaxşısı da var, pisi də var. Amma dünyada qanunauyğunluqlara uymayan istisnalar da var - istisnalarsız həyat yoxdur. Məsələn, dünya dili sayılan ingilis dilində 200-ə yaxın dil qanunauyğunluqlarına uymayan - tabe olmayan feil var. Millətlər və cəmiyyətlər arasında da mənfi və müsbət xüsusiyyətləri ilə istisna təşkil edənləri kifayət qədərdir. Məsələn, bütün dünyada demokratiya ilə vətəndaş rifahı düzmütənasibdir. Yəni ölkə nə qədər demokratikdirsə, vətəndaşın rifahı bir o qədər yüksək olur. Lakin Hindistan adlı ölkədə demokratiya yüksək səviyyədə təcəlla etsə də, əhalinin rifahı Nigeriyadan da aşağı səviyyədə təmin edilir. Təsəvvür edin ki, Hindistan əhalisinin 60%-nin normal sanitar qovşağı yoxdur. Amma söz azadlığına və seçkilərin demokratiklliyinə də söz yox... Belə istisnalar hər bir sahədə mövcuddur və onların xüsusi əmələ gəlmə səbəbləri də var. Mövzumuz Hindistan olmadığı üçün bu ölkənin anormal inkişafinin səbəbləri barədə söhbəti başqa yazıya saxlayaq.

Ermənilər də dünyanın belə istisna cəmiyyətlərindən biridir. Əvvəla, ermənilər bir hay tayfasıdır, əsirlər boyu vətən axtarışı ilə Hindistandan İtalyaya, oradan isə Avropaya, Yaxın Şərqə və Cənubi Qafqaza ayaq açıblar. Bu tayfanın bəzi nümayəndələrinin həyasızlığına, naqqallığına, yalançılığına və satqınlığına valeh olan rus çarları və sərkərdələri onlardan Osmanlıya qarşı bir vasitə kimi iştifadə etmək qərarına gəliblər. Üst-üstə götürsək, Rusiya və Türkiyə (Osmanlı) 69 il bir-biri ilə vuruşublar, 350 il faktiki müharibə vəziyyətində olublar. Rus-Türk müharibələrinin birini o birindən cəmi-cümlətanı təxminən 25 il ayırıb. Bu müharibələrdə Rusiyanın qalib gəlməsinin əsas səbəbi vaxtı ilə Osmanlıya sığınmış ermənilərin satqınlığı olub. Erməni tayfasının satqın nümayındələrinin var dövlətə sahiblən-diyini görən digər tayfa üzvləri də bu missiyaya qoşulmağa zaman-zaman can atıb. Onlardan böyük əksəriyyəti buna nail olur və türkləri küreyindən xəncərləməklə varlanırlar. Beləcə bütün tayfa həyatını ruslara ”ayı xidməti” göstırməyə həsr edir. Çox sonralar Osmanlı rəhbərliyi bunu başa düşərək erməni tayfasından olan vətəndaşlarını sərhəddən ölkənin dərinliklərinə köçürdür. Bu 1915-ci ilə təsadüf etdiyindən ermənilər bunu ”soyqırımı” adlandırır.

1828-ci ildə Rus-İran müharibəsinin bitməsi ilə bağlanan Türkmənçay sülh müqaviləsindən sonra isə Cənubi Qafqaz Rus imperiyasının caynağına keçir. Bundan sonra rus çarları ermənilərə xidmətlərinin qarşılığında ənam olaraq onları indiki Ermənistan ərazisinə köçürür. Eyni zananda onları silahlandlıraraq, yerli əhalini sıxışdırıb bu yerlərdən çıxartmaq üçün istifadə edir. Osmanlını satıb varlanan, daha sonra Cənubi Qafqaza köçürülərək ”vətənlə” mükafatlandırılan ermənilər sonra da ruslardan daha bir ərmağan aldı Azərbaycanın tarixi ərazilırində Ermənistan SSR adlı dövlət quruldu.

Eyni zamanda, ermənilərin rus sərkərdələrinə xidmət etməsi üçün onların bir hissəsi həm də Qarabağa köçrülür. Beləcə erməni tayfası hər addımda satqınlığa, riyakarlığa görə ənam aldığına görə bu tayfada sözügedən xüsusiyyətlər inkişaf edir. Artıq dörd əsirdən çoxdur ki, ruslar erməni tayfadından türklərə qarşı istifadə edir. Bu səbəbdən də yalançılıq, riyakarlıq və satqınlıq bu tayfanin genetik xüsusiyyətinə çevrilib. Məhz buna görə biz iki əsrə yaxındır ku, arxasında rusun dayandığı erməni təcəvüzündən əziyyət çəkirik. Rus təbliğatı erməni cəmiyyətinin beynini yuyaraq onu inandırıb ki, Qara dənizdən Xəzər dənizinə qədər ərazilər tarixi erməni torpaqlarıdır.

Vikipediya-da ermənilərin ”Erevan” adlandlrdığı şəhərin saxtalaşdırılmış tarixinə nəzər sala bilərsiniz: ”Tarixən bu, qədim və orta əsr Ermənistanının demək olar ki, bütün paytaxtlarının yerləşdiyi Qavar Kotayk Aşxara Ayrarat - erməni kral domeninin



əsas şəhəri olmuşdur. İrəvanın mərkəzindən 19 km qərbdə bütün ermənilərin əsas ruhani mərkəzi olan Eçmiədzin kilsəsinin əsası eramızın IV əsrinin əvvəllərində qoyulmuşdur. Fars şahı I Abbasın göstərişi ilə Şərqi Ermənistanın 300-350 min sakini (İrəvan da daxil olmaqla) zorla qovulduqda, 1603-1605-ci illərin Böyük Sürgünü nəticəsində şəhər demək olar ki, boşaldı. Müxtəlif hesablamalara görə, burada 250 mindən 300 minə qədər etnik ermənilər var idi. Daha sonra, şəhər 1679-cu ildə baş verən güclü zəlzələ nəticəsində tamamilə dağıdıldı, lakin 1690-cı illərdə yenidən quruldu və məskunlaşdı (daha kiçik miqyasda).

İrəvan yalnız 1828-ci ildən, Rusiya imperiyasının tərkibinə daxil olandan sonra yeni həyat əldə etdi”.

Bu isə İrıvan şəhiri barıdə həqiqətlır: ”13 oktyabr (1 oktyabr - Yuli təqvimi) 1827-ci ildə Rusiya imperiyası ordusunun İrəvan xanlığının paytaxtı olan İrəvan qala-şəhərini ələ keçirib. İrəvan xanlığı cənubdan Maku xanlığı, cənub-şərqdən Naxçıvan xanlığı, şərqdən Qarabağ xanlığı, şimal-şərqdən Gəncə xanlığı, şimaldan Kartli-Kaxeti (indiki Gürcüstanın bir hissəsi) çarlığı və qərbdən Osmanlı İmperiyası ilə həmsərhəd idi. İrəvan qalasının işğal planı Sankt-Peterburqda cızılmışdı. Ancaq ilkin plan əvvəlcə Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı Aleksey Yermolovun (1816-1827) etirazlarına görə, sonra isə baş qərargah rəisi İvan Dibiç-Zabalkanskiy tərəfindən dəyişdirilmişdir”.

Tarixçilər tərəfindən bu qədər aydın göstərilən tarix kimlər tərəfindən təhrif edilib? Əlbəttə, rusların patronajlığı ilə ermənilər tərəfindən... Yeri gəlmişkən, İrəvan qalasının qalıqları ötən əsrin 80-ci illərində məqsıdyönlü şəkildə dağılıldı. İndi ermənilərin ”Erevan” adlandırdığı bu şəhərdə yaşı iki əsirdən çox olan bir dənə olsun belə tarixi abidə yoxdur. Bir neçə kilsının tarixi saxtalaşdırılaraq iki yuz ildən çox göstırilir, amma hənin kilsələr barədə tarixdə bir hərif belə yoxdur.

Bütün bunları sərgiləməkdə demək istədiyim odur ki, ermənilərin bu gün nə deməsinin bizim üçün heç bir əhəmiyyəti olmamalıdır. Çünki bu tayfa genetik olaraq, yalançı, riyakar və satqındır. Lakin Azərbaycan mediası bu gün tirajlayır ki, Arayik Arutunyan Azərbaycan vətəndaşı olduğunu etiraf edib.

Belə ki, İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədr müavini Elçin Şirinov Trend-ə müsahibəsində deyib: ”Qarabağda fəaliyyət göstərən separatçı rejimin keçmiş rəhbəri Arayik Arutyunyan özünü Azərbaycan vətəndaşı hesab edir”.

Birincisi Arayikin Azərbaycan vətəndaşlığına qəbul edilməsi xalqımızın və vətənimizin adına ləkə olardı. İkincisi isə o, Azərbaycan vətəndaşıdırsa, illərlə Azərbaycan Ordusuna qarşı vuruşaraq vətən xaini adını haqq edib.

Həmin müsahibədə diqqətimi çəkən bir məqam Arayikin başqa bir yalanı oldu. Arayik deyib ki, ermənidilli məktəbdə oxuduğundan, Azərbaycan dilində minə qədər söz bilsə də bu dildə danışa bilmir. Bu faktdır ki, Arayik Arutyunyan Xankəndidə rus bölməsində oxuyub. Bunu onun azərbaycanlı sinif yoldaşı efirdən elan etdi. Özü də həmin xanım Arayiki dərslərindın aşağı qiymət alan, kütbeyin birisi kimi xarakterzə etmişdir. Son hadisələr onu göstərdi ki, Arayik doğrudan da kütbeyin olub və burnunun ucundan qabağı görə bilməyən birisidir. Əks təqdirdə o, indi barmaqlıqlar arasında olmazdı.

Amma son zananlar erməniləri ayıltmağa, bir cəmiyyət kimi səhv yolda olduqlarını anlatmağa çalışan erməni bloğerlərin sayı artmaqdadlr. Bu isə Ermənistanın Qərb və Amerikaya doğru meyillənməsi ilə bağlıdır. Qərb və ABŞ-da ya düşünürlər ki, erməni cəmiyyətini ”erməni xəstəliyi”indən xilas etmək mümkündür, ya da elə onlar da ruslar kimi ermənilərdən bir vasitə olaraq istifafə etməyə hazırlaşırlar. Biz bir dövlət olaraq hər iki varianta hazır ola bilərik və hazır olmalıyıq.



Akif Nəsirli



# İstilik qiymətinin artımı indeksasiyada nəzərə alınacaq?

**Hərbiçilərin ərzaq payını artıran NK qərarı illərdir icra olunmur, amma...**

Yeni 2024-cü ilə sayılı günlər qalıb. Hökumət yetkililəri xeyli vaxtdır əhalinin başını gələn ildən pensiyaların, sosial ödəmələrin dolanışıq xərcləri indeksinin dəyişməsinə uyğun olaraq artım faizi ilə qatmaqla məşğuldur. Bu faizin nominal əmək haqqı artımına əsasən 11,2 həcmində olacağı bildirilir. Keçən il isə artım 14,7 faizdən hesablanmışdı. Bəs indeksasiyada kommunal xidmət ödənişlərinin artması nəzərə alınırmı?

Kommunal xidmətlərdə artım olmadığını düşünənlər yanılır. Artıq " Azəristilik" istilik qiymətlərini mənzilin yaşayış sahəsinə uyğun yox, ümumi sahəyə uyğun hesablayır. Yəni istiliyin qiyməti orta hesabla 1,5-2 dəfə artıb! Bu artımı NK-nın 05.09.2023 tarixli, 303 saylı qərarı ilə bağlayan xidmət qurumu qiymətləri İqtisadiyyat Nazirliyinin Tarif Şurasının müəyyən etdiyini bilərəkdən unudur. NK-nın sözügedən qərarında istilik sayğaclarının binaların girişində quraşdırılan mənzillərin ümumi sahəsinə əsasən Tarif Şurasının müəyyən etdiyi qiymətlərlə hesablanması vurğulanıb. Fikrimizcə, burada anlaşılmazlıq var və bu anlaşılmazlıq istilik xidmətinin əhalinin, istehlakçıların boş cibinə girməsinə gətirib. Birinci anlaşılmazlıq odur ki, qiymətləri Tarif Şurası müəyyən edir, NK yox. Tarif Şurasının qərarında isə mənzilin yaşayış sahəsinin kvadrat metrinə görə 15 qəpik ödənilməsi doğrulanıb. Belə çıxır, hökumət ümumi qiyməti artırmadan ümumi sahəyə uyğun gizli artım tətbiq edir? İkinci anlaşılmazlıq odur ki, axı binaların girişində sayğac quraşdırılmayıb ! Ən başlıcası, mənzillərin ümumi sahəsi deyildikdə binada olan bütün mənzillərin ümumi yaşayış sahəsi anlaşılır yəqin.

Hələ ki istilik qiymətinin NK-nın anlaşılmaz qərarına uyğun 1,5-2 dəfə artırılmasına nə İqtisadiyyat Nazirliyinin Tarif Şurası, nə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti , nə əhalinin sosial müdafiəsinə cavabdehlik daşıyan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, nə Ombudsman, nə MM, nə də NK-nın özü reaksiya verir. Yəqin hamısının ürəyincədir. Sabir demiş, mən salim olum, cümlə cahan batsa da batsın!

Yeri gəlmişkən, NK-nın 08.01.2013 tarixli 2 saylı qərarı ilə hərbi və xüsusi rütbəli şəxslərin ərzaq payı norması ikiqat artırılaraq 64 manatdan 128 manata qaldırılıb. Lakin 11 ildir bu artım hərbçilərin təminat xərcliyinə, şəhidlərin , qazilərin, əlillərin pensiyalarına hesablanmır. Sosial hökumət belə olur? Necə olur, əhalinin ziyanına olan bir sözdən yapışıb, anında qiyməti artırırlar, amma konkret artıma uyğun 11 ildir hesablama aparılmır? Bəs indi, istilik qiymətinin gizlin artımı indeksasiya faizinin artımına gətirəcək?

***Məğrur Bədəlsoy***

# 31 ilin 68 yaşlı Qarabağ əlili əlillikdən məhrum edilməklə hədələnir

## ƏƏSMN-in Əlillik siyasəti şöbəsinin "şantaj siyasəti"

Onuncu aydır 1-ci dərəcəli Qarabağ əlili kimi pensiyama 6 il qabaq 05.07.2017 tarixli, 2-1(81)-1889/17 saylı məhkəmə qərarı ilə əlavə olunan 110 manatın dələduzluqla kəsilməsinə qiymət verilmir. Ali dövlət hakimiyyəti, hüquqqoruma orqanları şikayəti qanuna zidd olaraq barəsində şikayət edilən DSMF-in Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına göndərir və təbii ki, özbaşınalıq sürür. Təsəvvür edin, Bakı İnzibati Məhkəməsi (hakim Günel xanım Sevdimalıyeva) 5 ay borclu Filialdan məhkəmə qərarının icrası haqqında məlumat tələb edib, 5 aydan sonra yazıb ki, məhkəmə qərarı 2021-ci ilə kimi- " Əmək pensiyaları haqqında" qanunun 19-cu maddəsi ləğv olunana kimi icra olunub.(?) İnzibati məhkəmə icraatında, İPM-in 116-120 maddələrinə uyğun olaraq, məhkəmə qərarlarının icrasını təmin etməli olan məhkəmənin belə "icraçılığı" Ombudsman Aparatının, Prezident Administrasiyasının ləğv edilən qanun maddəsinin məhkəmə qərarını da, Konstitusiyanı da ləğv etməsi cavabına heyrətlənməyə yer qoymur. Neyləyək, hüquq dövlətinin əsas prinsipi, heç demə, borclunun dövlətin adından çıxarılan məhkəmə qərarını ləğv etməsi, tələbkardan borc tələb etməsi absurdluğu imiş!

Belə qeyri-prosessual ilgidən sonra bu özbaşınalığa son qoyacaq qurumun prokurorluq olması şübhə doğurmur. Nə



yazıq, Konstitusiyanın 133-cü maddəsi əsasında qanunların icrasına nəzarət etməli olan prokurorluq da üzərinə qoyulan görəvi yerinə yetirməkdən imtina edir. Qanunların icrasına nəzarət(sizliy)ə, korrupsiyaya qarşı mübarizə(sizli)yə baxın, 161- korrupsiyaya qarşı mübarizə "qaynar xətti" 961- qanunların icrasına nəzarət xəttinə və əksinə müraciət etməyi məsləhət görür, heç biri də şikayəti qeydə almır. Beləcə dövlətin, məhkəmə qərarının, Konstitusiyanın məmurun cibindən aşağıda tutulması özbaşınalığı 10-cu aydır hökm sürür.

Axırı, media işə qarışandan sonra baş prokurorluqdan şikayətin nəzarətə götürüldüyü bildirilib. Di gəl, hələ də, özbaşına kəsilən 110 manatın bərpası gerçəkləşmir. Hələ də özbaşınalıq sürür. ƏƏSMN-in tabeliyindəki, yanındakı qurumlar yeni-yeni planlar , özbaşınalıqlar düzənləyir.

Dekabrın 22-də 1-ci vitse-prezident, Heydər Əliyev Fondunun prezidentinin qəbulundan çıxandan sonra Qarabağ əlilinə ƏƏSMN-in Əlillik siyasəti şöbəsindən 0502851873 nömrəsi ilə zəng edən anonim xanım prokurorluğun müraciəti əsasında 68 yaşlı 31 ilin 1-ci dərəcəli Qarabağ əlilinin əlillik vəziyyətinin qiymətləndirilməli olmasını bildirib. Özbaşınalığı göz önünə gətirə bilirsiniz? Məhkəmə qərarı ilə pensiyaya əlavəni kəsirlər, bərpa etmək yerinə, əlillik dərəcəsini kəsməklə şantaj edirlər!(?) Bəyəm əlillik siyasəti şöbəsinin, reabilitasiya qurumunun işi əlilliyi olan şəxsləri şantaj etməkdir? Prokurorluq bu şantaj cinayətinə qiymət verməyə borcludur. Elə həmin gün, həmin saat 161 qaynar xəttinə bilgi verilib...

***Məğrur Bədəlsoy***

**P.S.** 1993-cü ilin Novruz bayramı günlərində Ağdərə döyüşlərində ağır baş beyin taravması almışam, 5 qabırğamı artilleriya zərbəsi aparıb. (Hamısı ƏƏSMN-də var, hətta yenidən təqdim edilib) 27 ildir Səhiyyə Nazirliyi ölkədən qıraqda müalicəmə rəy verir, ƏƏSMN adi yol xərcini belə ödəmir, öz kəsilən pensiyamın hesabına MDB ölkələrindəki dost-qohumlarlımın tibbi yardımına gedirəm. Son illərdə burdan-bura Naxçıvan "Duzdağ" fizioterapiya mərkəzində ağır astmadan müalicəm də qərəzlə təşkil olunmur. Adi yol xərcinin belə ödənilməsindən imtina edilir. Kəsilən pensiyanın bərpasını tələb edəndə isə əlilliyinin kəsiləcəyi ilə şantaj edilirsən. Budur əlillər barəsində dövlət siyasəti?

# Gələn həftədən bu avtomobillərin Azərbaycana gətirilməsi qadağan olunacaq

*"Azərbaycanda Çin avtomobillərinə maraq yüksək səviyyədədir".*

Bunu açıqlamasında avtomobil bazarındakı vəziyyəti şərh edən nəqliyyat eksperti Elmeddin Muradlı deyib.

Onun sözlərinə görə, xüsusən də hibrid, plagin hibrid və ya tam elektrikli avtomobillərə maraq və tələbat daha çoxdur. Bu tələbatın başlıca səbəbi isə qiymətlərin münasib olmasıdır: *"Hazırda bazarda daha çox Çin avtomobillərinə üstünlük verilir. Bu avtomobillərin əksəriyyəti Aİ-92 markalı benzinlə işləyir. Həmçinin bu avtomobillərin qiymətləri də əlçatandır. Halbuki ənənəvi avtomobillərin hibrid və tam elektrikli versiyaları çox bahadır. Çin versiyasında isə insanlar ciblərinə uyğun modelləri asanlıqla tapa bilirlər".*

Ekspert həmçinin ölkəmizə idxal olunan nəqliyyat vasitələrinin istehsal ilindən də danışıb. O, Azərbaycana idxalına qadağa qoyulan avtomobillərə də toxunub.

Xatırladıb ki, Nazirlər Kabineti tərəfindən avtomobil idxalı barədə verilmiş məlum qərar hər il yenilənir.

*"Bu qərarla istehsal ili 10 ildən artıq olan nəqliyyat vasitələrinin ölkəyə gətirilməsi qadağandır. Yəni car il istehsal ili 2013-cü il olan avtomobillərin ölkəmizə gətiril-*



*məsinə icazə verilirdisə, artıq yanvar ayından idxalına icazə verilən nəqliyyat vasitələrinin istehsal ili ən azı 2014 olmalıdır. 2014-dən əvvəl istehsal olunan avtomobillərin gətirilməsi məhdudlaşdırılacaq. Çünki avtomobil parkını yeniləməyə çalışan bir çox ölkə hətta 5 ildən yuxarı olan maşınların ölkəyə gətirilməsini məhdudlaşdırır".*

# Əkiz bacılar

Azərbaycan qadını bu gün bu mövzu ətrafında mülahizələr dinlənilərkən həqiqətən bu günkü Azərbaycan qadını fenomeni nəzər-diqqətimizdə daha yüksək zirvələr fəth etmiş bir varlıq olaraq ucalır. Ana adı, qadın adı həm şərəfli, həm də müqəddəs addır. Bütün bölgələrimizdə qadın adını yüksək tutan, şərəflə yaşayıb, nailiyyətlərlə zəngin ömür yolları ilə addımlayan xanımlarımız vardır və onların fəaliiyyəti gənclər üçün örnəkdir, nümunədir.

Bu yazımda bu cür xanımların ikisindən - Almaz və Solmaz əkiz bacılarından söz açacağam. Yaxşı deyiblər ki, aslanın erkəyi, dişisi olmaz.

1953-cü ilin dekabr ayının 27-də Ağcabədi şəhərində yaşayan aqronom Firidun Həsənovun ailəsində bir cüt qız uşağı dünyaya göz açır. Validə ananın sevinci yerə-göyə sığmır. Əkizlərdən birinin adını Almaz, digərinin adını isə Solmaz qoyurlar. Əkiz bacılar çətinliklə də olsa böyüyüb ərsəyə çatırlar. Onların 1 yaşı olanda ailə Ağdaş şəhərinə köçür. Bu ailədə 2 qız, 6 oğlan dünyaya gəlir. Əkiz bacılar 1969-cu ildə Ağdaş şəhər, S. Vurğun adına orta məktəbdə 8-ci sinifi başa vururlar.

Qızların arzuları isə bambaşqa olur. Almaz xanım kənd təsərrüfatı sahəsini sevdiyi üçün 1970-ci ildə Ağdaş Kənd Təsərrüfat Texnikumunun "Bitki Mühafizə" fakültəsinə daxil olur. Texnikumu əla qiymətlərlə bitirən Almaz xanım aqronom ixtisasına yiyələnir. Kənd təsərrüfatına meyl göstərən xanım bir neçə il kişilərlə çiyin-çiyinə



Sovxozda işləyir. Özü də aqronom. Tale ona həmişəlik Qəbələ çörəyi qismət edibmiş, O, 1976-cı ildə Qəbələ sakini Nurəli Museyevlə ailə həyatı qurur. 1980-ci ildə o vaxtki 141 nömrəli Qəbələ peşə məktəbində əmək fəaliyyətinə başlayır. Burada gənclərə aqronomluq ixtisasından dərs deyir. 24 il bu təhsil ocağında həvəslə fəaliyyət göstərən Almaz xanım ömür-gün yoldaşı ilə 3 övlad böyüdüb tərbiyə edir. Zaur, Ramin və Sevinc. Kişi qeyrətli Sevinc xanım Gəncə Pedoqoji Kollecinin məzunudur. Gözəl və bacarıqlı ziyalı kimi tanınır. Vətənpərvər xanımdır.

Əvvəl qeyd etdiyim kimi əkiz bacıların arzusu fərqli idi. Solmaz xanım 1970-ci ildə Ağdaş Pedoqoji Texnikumuna daxil olur. 1974-cü ildə burada ibtidai sinif müəllimi ixtisasına yiyələnir. Ağdaşın Ləki qəsəbəsində müəllimliyə başlayır, körpə balalara elm öyrədir.

Solmaz xanım Ləki sakini Nazim Qələmovla ailə qurur və onların Xəyyam, Sənan və Xatirə adlı övladları dünyaya göz açır. Öz peşəsini qəlbən sevən Solmaz müəllimə Ləki kənd məktəbində pedoqoji fəaliyyətini davam etdirir və 2018-ci ildə təqaüdə çıxır. Əkiz bacıların ataları Firidun Həsənov dünyasını dəyişsə də, anaları Validə xanım ömrünün 88-ci payızını yaşayır.

Bu gün biz də əkiz bacıları - Almaz və Solmaz bacılarını 70 yaşlarının tamam olması münasibətilə təbrik edir, onlara can sağlığı, dağlar kimi vüqarlı, çaylar kimi axarlı ömür arzulayırıq.

Ürək sözlərimi onlara həsr etdiyim şeirlə sonlandırmaq istəyirəm.

### Ay Almaz xanım

(Təhsil yollarında 33 il can qoymuş Almaz xanımın ad gününə)

*Bu gün əzizlərin yığışıb gəlib,*
*Ad günün mübarək, ay Almaz xanım!*
*Yetmiş yaş nədir ki, səni yüz yaşa,*
*Xoşbəxt xanımısan sən bu dünyanın.*

*Həyat yollarında zəhmətin sonsuz,*
*Təpə də aşmısan, dağ da aşmısan*
*Təhsil yollarında çox can qoymusan,*
*Heç zaman büdrəyib sən çaşmamısan.*

*Sevib öz peşəni ürəkdən, candan,*
*Əmək yollarında saç ağartmısan.*
*Sevmisən qeyrətlə öz millətini,*
*Ən yüksək pilləyə gedib çatmısan.*

*Doğma olub hər şagirdin səninçün,*
*İsidib onları hər an nəfəsin.*
*Zəhmətlə ucaldın, ondan güc aldın,*
*Gəldi zirvələrdən hər zaman səsin.*

*Övlad böyütmüsən qeyrət, namusla,*
*Ana tək həyatda öz yerin vardır.*
*Qarlı qış görmüsən, çiçəkli bahar,*
*Boranlı qışın da güllü bahardır.*

*Ramin, Zaur kimi övladların var,*
*Onların uğuru səninçün zəfər.*
*Kişi qeyrətlidir tək Sevinc qızın,*
*Səmada parlayan ulduza bənzər.*

*Əkiz tayın olan Solmaz xanım da,*
*Bu gün unudulub çıxarmı yaddan?*
*Dünyanın ən xoşbəxt bacılarısız,*
*Narazı olmayın heç vaxt həyatdan.*

Emin Baratoğlu, AYB-nin və AJB-nin üzvü, "Qızıl Qələm", "Xarı bülbül", "Məhsəti Gəncəvi", "İlin vətənpərvər şairi" media mükafatları laureatı, Prezident təqaüdçüsü, Qəbələ rayonu.

### HARDASAN

*Pozulubdur güzəranım ey nübarım, hardasan,*
*Yazım, gülüm, çiçəyim həm nuri cahanım, hardasan.*
*Ağlar qalıb qəmli könlüm bil sənsiz gəlməz, hardasan,*
*Olmur mənə rahət dövran dövrü dünyam, hardasan.*

*Düşmüşəm qəm oduna, yoxmuş vəfası bu dünyanın,*
*Gecələrim nalə çəkir açılmır sabahım, danım.*
*Günüm keçir ahu-zarla, üzülübdü cismi canım,*
*Damarda qanım, ruhum, qolum, varım-yoxum, hardasan.*

*Xəyalınla yaşayıram olmur mənə səbri qərar,*
*Yoxdu heç hicranın möhnəti tutmaz ki, könül qərar.*
*Ağlayıram, sızlayıram tapmıram ki, heç də qərar,*
*Ümidim, pənahım, vüqarım, həm təsəllim, hardasan.*

*Qucaqlayıb kədər məni, perik düşüb şadü dəyər,*
*Ömür yanır şişdə neynim, köz üstündə kabab təhər.*
*Qurtar məni bu zillətdən, qalmadı can sağü təhər,*
*Eşit məni ey Səbuhi, səsim-sorağım, hardasan.*

*Çıx qəflət qucağından çıx, səbrin gəlsin özümüzə,*
*Et xiridar sözlərini et, sevinc gəlsin üzümüzə.*
*Çağırıram mehin gəlsin, dolsun qövsü sinənizə,*
*Taxtı tacım, sözüm, söhbətim, görən gözüm, hardasan.*

*Yurd yuvamız pərən düşüb, yoxdu ümid gələcəyə,*
*Ömür olub ağır bir yük, yoxdu gücüm gəzdirməyə.*
*Hicran yolu bağlı qalıb, yoxdu sonu gedəcəyə,*
*Yandı Teyyub bu yollarda, mərdi mərdanəm, hardasan.*

*Divarlar nəmləyib sanki ağlayır.*
*Otağın nəfəsi çöküb oynamır,*
*Qapı cəftəsini yad üzə açmır.*

*Yatdığın evin də boynu bükükdü,*
*Həsrətdən güllərin rəngi solubdu.*
*Gördüyüm ağrıdan üzüldüm yaman,*
*İtirdim Teyyubu görsən, mənəm san.*

**Müəllif şəhidimizin atası**
**Əliyev Teyyub Əyyub oğlu**

***



### SƏNİ AXTARIRAM

*Çoxdandı görmürəm darıxdım yaman,*
*Səni axtarıram, hay ver, hardasan?*
*Getdim cavanlığın keçən yerlərə,*
*Ətrini duymağa, izin görməyə.*

*Gördüm ki, ağlayır yurd fağır-fağır,*
*İzin soraqlayır, qayıt haylayır.*
*Torpağın sinəsi cadarın sayır,*
*Hər şey qəribsəyib Səbuhi anır.*

*Yalqız qalıb bağça-bağın, düşünür,*
*Cığırların darvazaya sürünür.*
*Pilləkən boylanıb, səni səsləyir,*
*Bir cüt ayaqqabı səni gözləyir.*

*Pəncərə yollara baxıb sızlayır,*

***

### Qoşma

*İnsan gərək özlüyündə düşünsün,*
*Necə gəzim, kimlə gəzim, harda mən,*
*Tay-tuşlarım uyğun ola özümə,*
*Utanmayam danışanda orda mən.*

*Oturanda gərək bilim yerimi,*
*Niyə durum, görən kimi birini,*
*Nə danışım, nə də verim sirrimi,*
*Cəhli düşə, məğlub olam zorda mən.*

*Qiymət verəm gərək özüm-özümə,*
*Sərhəd qoyum ixtiyarsız sözümə,*
*Qoşa barmaq uzanmaya gözümə,*
*Balıq kimi çırpınmayım torda mən.*

*Abdullayam, hər hesabı qanmışam,*
*Haqsızlığa alışmışam, yanmışam,*
*Çoxlarını candan əziz sanmışam,*
*Görmədim yaxın gələn darda mən.*

Abdulla



## “RUSLAR PARAŞÜTLƏRLƏ SİLAH GÖNDƏRİRDİLƏR”

**Türkiyənin qarşısını belə almaq istəyirlərmiş...**

İraq Regional Kürd Administrasiyasının peşmərgələri vasitəsilə Habur Sərhəd Qapısında təhlükəsizlik qüvvələrinə təslim olan “Baver” kod adlı terrorçu T.G (adı açıqlanmır-red.) bir sıra mühüm etiraflar edib.

2018-ci ildə Türkiyənin Afrində keçirdiyi *“Zeytun budağı”* əməliyyatında təhlükəsizlik qüvvələrinə qarşı hücumlarda iştirak etdiyi müəyyən edilən terrorçu artıq həbs edilib. *“Dövlətin birliyini və bütövlüyünü pozmaq”* ittihamı ilə ömürlük həbs cəzasına məhkum edilən terrorçu *“Zeytun budağı”* əməliyyatı zamanı rusların PKK-ya böyük dəstək verdiyini bildirib.

Terrorçu əməliyyat başladıqdan sonra rusların paraşütlərlə havadan əraziyə silah dolusu yeşiklər göndərdiyini etiraf edib. O, bu silahların yük maşınlarına yüklənərək



PKK-YPG terrorçularına çatdırıldığını bildirib.

*“Afrində əməliyyat başlayanda kod adı “Mahmud Reş” olan bir nəfər mənə zəng edərək dedi ki, ÖSO (Azad Suriya Ordusu-red.) və Türkiyə Silahlı Qüvvələri Hələb-Afrin yolunu tutsa, içəridə sıxışıb ölə bilərik. Mən əməliyyat bitənə qədər 30 nəfərlik bir qrupla bu yolun təhlükəsizliyini təmin edərkən, Afrinin girişindəki Kıştahar kəndindəki məntəqələrə pikaplarla sursat daşıyan rus əsgərlərini gördüm. Gecə düşəndə YPG terrorçuları bu sursatları götürərək Türkiyə Silahlı Qüvvələrinə qarşı istifadə edirdilər”*,-deyə o qeyd edib.

# VLADİMİR PUTİNİN QORXDUĞU QADIN...

## Kreml Yekaterina Duntsovanı seçkiyə niyə buraxmır?

**Onu artıq “Rusiyanın Tixonovskayası” adlandıranlar var. Kreml onu nəinki seçkidə namizəd statusunda iştiraka, hətta imzatoplama kampaniyasına belə buraxmaq istəmir. Çünki o, Kremlin “cib müxalifəti” deyil və bunu hamı, elə həmin “cib müxalifəti”nin təmsilçiləri də bilir və etiraf edirlər...**

Söhbət Putinin sağa-sola ölüm, təhdid, repressiyalar yağdırdığı bir zamanda müstəqil namizəd kimi prezidentliyə iddiasını ortaya qoyan Tver vilayətinin Rjev şəhərindən olan jurnalist Yekaterina Duntsovadan gedir. Hüquq və telejurnalistika sahəsində iki ali təhsilə malik, həmçinin bir neçə il əvvəl Rjev şəhər Dumasının deputatı olan Duntsovanın üç övladı var. Buna baxmayaraq, artıq onu Rusiya siyasi səhnəsində son illərin ən cəsarətli qadını hesab edənlər var. Çünki Duntsova belə bir təhlükəli dönəmdə - Kremlin öz “yetirməsi” olan Priqojini havada partlatdığı, Navalnını uzaq şərqə sürgünə göndərdiyi, Rusiya ziyalı elitasını hətta “xüsusi hərbi əməliyyatı” öz adı ilə - “müharibə” adlandırdığı üçün ölkədən didərgin saldığı, həbs etdirdiyi, “xarici agent” damğası vurduğu, bir sözlə, açıq repressiyaların hökm sürdüyü bir vaxtda sadəcə, prezidentliyə namizədliyini irəli sürməyib. O, həm də ilk bəyanatlarındaca Ukraynada müharibənin dayandırılması, sülh danışıqlarının başlanması və Navalnı da daxil olmaqla, bütün siyasi məhbusların azad edilməsi tələbləri ilə çıxış edib, öz siyasi islahatlar proqramını təqdim edib.

Müasir Rusiyada belə tələblərlə çıxış edərək, prezidentliyə namizədlik iddiasını ortaya qoymaq xüsusilə də bir qadın üçün doğrudan da böyük cəsarət tələb edir və böyük ehtimalla Navalnının, hətta Priqojinin aqibətini yaşamaq perspektivinin siqnallarını verir...

Duntsovanın prezidentlik iddiası artıq Kremlin onu seçkiyə buraxmayacağı təqdirdə belə geniş ictimai rezonansa səbəb olub. Jurnalistlər onu Vladimir Putinə, Ukrayna ilə müharibəyə qarşı çıxan və rusiyalı siyasi məhbusların azad edilməsini tələb edən yeganə namizəd adlandırırlar.

Artıq Kreml bu potensial namizədi “sevmədiyini” dərhal nümayiş etdirib. Onun öz tərəfdarları ilə görüş keçirdiyi binanın elektrik enerjisi kəsilib. Onun “VTB Bank”dakı hesabı bağlanıb, ödənişləri dayandırılıb, özü prokurorluğa “söhbət üçün” çağırılıb və s. Ən əsası isə onun tərəfdarları imzatoplama kampaniyasına buraxılmayıb. Belə ki, dekabrın 20-də Duntsovanın namizədliyi üzrə təşəbbüs qrupu qeydiyyat üçün sənədləri MSK-ya təqdim edib. Ayın 23-də isə Mərkəzi Seçki Komissiyası təşəbbüs qrupu üzvlərinin təqdim etdikləri sənədlərdə 100 ədəd səhv aşkar edildiyini bildirərək qeydiyyatdan imtina edib. Beləliklə də, hələ ki, Duntsova onun namizədliyinin müdafiəsi üçün imzatoplama mərhələsinə belə buraxılmayıb.





İlk baxışdan belə sual yaranır ki, Kreml cəmi 300 minlik “telegram” kanalı olan və namizədliyini irəli sürənə qədər demək olar, heç kimin tanımadığı bir jurnalist xanımdan nədən bu qədər ehtiyat edir, hətta qorxur? Məsələ ondadır ki, Duntsovanı Putin üçün təhlükəli edən onun hansısa siyasi çəkisi, siyasi bacarıqları, nüfuzu və s. yox, daşıdığı ideya, seçicilərə təklif etdiyi sülh, əminamanlıq, inkişaf gündəliyidir. Rusiya cəmiyyəti hər nə qədər aqressiv, “çar sevən”, imperiyaçı, şovinist xüsusiyyətlərə malik olsa da, artıq müharibədən, ölümlərdən, bütün dünyada “izqoy” olmaqdan, iqtisadi imkanların daralmasından yorulub. Putin isə faktiki olaraq, müharibə, ölüm təhlükəsi, tənəzzül və təcriddən başqa rusiyalılara heç nə vəd etmir. Ona görə də Duntsovanı cazibədar edən yalnız onun təmiz reputasiyası, siyasətdə yeni sima olması, cəsarəti və digər şəxsi keyfiyyətləri deyil, Putindən fərqli olan yeni bir gələcək vəd etməsi, müharibəyə son qoymaq, Rusiyanı dünyaya açmaq və repressiyalar ab-havasını yumşaltmaq perspektividir. Məhz bunlardır Putini və onun rəhbərlik etdiyi hakim klanı qorxudan...

Məlum məsələdir ki, 2024-cü ildə Rusiyada həmişəki kimi real prezident seçkiləri olmayacaq. Müvafiq olaraq, bu prosedurda heç bir müxalifət və ya müstəqil namizəd iştirak edə bilməz və bilməyəcək. Əgər belə olmasaydı, Kreml mütləq hamını, o cümlədən Duntsovanı qeydiyyata alardı.

Buna baxmayaraq, Duntsova hələ ki, təslim olmur. O da maraqlıdır ki, ondan təkcə Kreml yox, Rusiyadakı ənənəvi müxalifət də qorxur. Belə ki, o, imzatoplama kampaniyasına buraxılmadığı üçün “Yabloko” kimi köklü partiyaya müraciət edərək, ona həmin partiya tərəfindən namizədliyinin irəli sürülməsini təklif edib. Lakin partiya lideri Qriqori Yavlinski Duntsovanı öz partiyasının namizədi kimi irəli sürməkdən imtina edib. Yavlinski birmənalı olaraq, özünün seçkiyə qatılmayacağını və “Yabloko” partiyasının namizəd irəli sürməyəcəyini elan edib. Duntsova ilə bağlı suala isə könülsüz cavab verərək, onu tanımadığını və patiyanın seçki ilə bağlı qərarının dəyişməyəcəyini deməklə kifayətlənib. Bu da “Yabloko” liderinin Vladimir Putinlə anlaşdığına dair söz-söhbətləri daha da artırıb.

Eynilə də digər müxalif siyasətçi Boris Nadejdin Duntsova ilə əməkdaşlıq təklifindən imtina edib. Bütün bunlar isə Duntsovanın əhali arasında populyarlığını daha da artırır və onun nə Kremlin layihəsi, nə də “cib müxalifəti” olmadığını bir daha təsiqləyir...

Hazırda Duntsovanı hansı perspektiv gözlədiyi ilə bağlı mülahizələr haçalanır. Təəssüf ki, onların çoxu pessimist çalarlar üzərində qurulub və buraya onun “sındırılmasından”, ələ alınmasından, qorxudulmasından, həbsindən tutmuş fiziki məhvinə qədər bir çox ssenarilər aid edilir. Ancaq istənilən halda, tanınmış rusiyalı politoloq Abbas Qalyamovun dediyi kimi, bu xanıma təkcə indiyə qədər göstərdiyi cəsarətə görə böyük təşəkkür düşür: “Ümumiyyətlə, Duntsovaya bu cəhdinə görə çox minnətdaram. İndi bütün rusiyalılar olmasa da, heç olmasa cəmiyyətin siyasətlə maraqlanan hissəsi Putinin populyarlığının mif olduğunu dəqiq bilir. Duntsova məsələsindən sonra Rusiyada guya “Putinsiz həyatı təsəvvür edə bilməyən dərin xalq” haqqında danışmaq sadəcə, mümkünsüzdür”.

**_Cəlal Məmmədov_**

# Qışda ilk prezident seçkisi...

Vur-tut iki aydan sonra Azərbaycanda erkən prezident seçkisi keçiriləcək. Hərçənd ki, ölkə daha əvvəl Konstitusiya dəyişikliyi üçün referedum və növbədənkənar parlament seçkiləri gözləyirdi. Bu gözlənti fonunda Prezidentin "növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunması" ilə bağlı sərəncamı yetərincə qəfil, sensasion addım, aydın səmada şimşək çaxması effektində oldu. Hər halda bir gün əvvəl adi siyasi bəndələr bu sürprizi yatsalar, rəngli yuxularında belə görə bilməzdilər.

Xatırladaq ki, bu, Azərbaycan tarixində ikinci erkən prezident seçkisidir, birincisi 2018-ci il aprelin 11-də keçirilmişdi və prezidentin səlahiyyət müddəti 2025-ci il aprelin 17-də başa çatmalı idi. Yeri gəlmişkən, Azərbaycanda prezident seçkisi ilk dəfə qışda keçiriləcək...

Siyasi sistemə korrekto, idartəetmədə islahat zərurəti ilə bağlı konseptual hədəf, təxmin, ssenari, fərziyyə, mülahizə, postulat və iddiaları, həmçinin daxili siyasi konyunkturanı arxa planda tutaraq prezident seçkisi vaxtı üçün nədən 2024-cü ilin qışının daha münasib, əlverişli və pafoslu desək, zamanın tələbi olması ətrafında baş sındıraq. Şübhəsiz ki, seçki Böyük Qarabağ Zəfəri fonunda keçiriləcək. Qələbə qüruru, hissi, eyforiyası, ovqatı, fonu və gözləntiləri istidir, deməli, həm də hərbi triumfu parlaq siyasi qələbəyə çevirmək üçün əla dönəm, zəmin və fürsətdir...

Əjdaha ilində - yəni, 2024-cü ildə qlobal geosiyasi rəqabətin beynəlxalq konyunkturanı nə hala salacağı qaranlıqdır. Martın 17-də Rusiyada, noyabrın 5-də ABŞ-da prezident seçkiləri keçiriləcək. Putin Kremldə qala və ya Bayden Ağ evdən gedə bilər, əsas olansa budur ki, supergüclərin başları öz işlərinə qarışacaq və bu dönəmi dəyərləndirmək, bir addım qabağa düşmək lazımdır. Birinci Qarabağ savaşı da Ağ evdə Tramp-Bayden "rakirovka"sı dönəminə təsadüf etmişdi. Supergüclər seçkilərdən sonra rahatlayır və burunlarını hara gəldi soxurlar...

Ukrayna-Rusiya müharibəsi sürünür. 2024-cü il bu savaşın sonu da ola bilər, növbəti ili də. ABŞ Senatı dünən Ukraynaya 60 milyard dollarlıq yardım paketini blokladı, Baydenin çağırışlarına məhəl qoymadılar. Amma Moskva zəifləyir, günün birində qəfil sürpriz ola bilər: ya Putin yıxılar, ya da Rusiya... Yəni, seçkini geosiyasi rəqabətin şiddətlənib dünyanı qovurduğu zamana və ya ondan sonrasına buraxmaq münasib deyil, düşər-düşməzi ola bilər...

Yeri gəlmişkən, erkən prezident seçkisi elanından bir gün əvvəl ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn Bakıda oldu və Prezident İlham Əliyevlə görüşdü. Güman ki, bu ziyarətdən sonra Bakı-Vaşinqton gərginliyinin səngiyəcəyini gözləmək olar. Ceyms O'Brayn Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini deyib, bu xüsusda danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu diqqətə çatdırıb. Yəni, Blinkenin köməkçisi Vaşinqton prosesinin bərpasını istəyib.

Həmin gün, dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda sülh danışıqlarında Qərb platformaları ilə bağlı Bakının mövqeyinə dair sualı cavablandıran Prezident İlham Əliyev bəyan etmişdi ki, hazırda Avropa İttifaqı Şurası tərəfindən təşkil olunan vasitəçilik prosesi və bundan əlavə, "Moskva istiqaməti" adlandırılan xarici işlər nazirləri arasında müzakirələr mövcuddur: "ABŞ Konqresində məşhur dinləmələr baş tutana qədər "Vaşinqton istiqaməti" adlanan proses var idi ki, xarici işlər nazirləri Vaşinqtonda görüşürdülər. Belə görünür ki,



Vaşinqton istiqaməti artıq aktual deyil. Çünki bu gün Bakıda olan Dövlət Departamentinin rəsmi nümayəndəsi Azərbaycanla "işlər əvvəlki kimi ola bilməz" deyir və Azərbaycanı görmədiyi işlərdə ittiham edir. Belə ki, "əvvəlki kimi işlər" yoxdursa, deməli, hər sahədə "əvvəlki kimi işlər" yoxdur. Eyni zamanda, Azərbaycanın yüksək vəzifəli rəsmilərinin ABŞ-a səfərlərinə məhdudiyyətin qoyulduğu elan edildi. Bu, ABŞ-la strateji əhəmiyyətə malik olan münasibətlərimizin tarixində ilk dəfə baş verdi. Bu administrasiya bu münasibətləri məhv etməyə çalışır, hansı səbəbdən bilmirəm... Beləliklə, əgər həmişəki kimi, heç bir iş yoxdursa, bunu qəbul edirik. Bu o deməkdir ki, Vaşinqton aktual deyil. Ya deməlidirlər ki, iş həmişəki kimi davam edir, - mən ümid edirəm ki, bu gün bunu eşidəcəyəm və biz Vaşinqton prosesini bərpa edəcəyik, - ya da yalnız Brüssel və Moskva prosesi olacaq. Ola bilər ki, ikitərəfli danışıqlar olsun".

Qeyd edək, sualı verən Almaniya Beynəlxalq Əlaqələr və Təhlükəsizlik İnstitutundan Darya İşçenko həmçinin maraqlanmışdı: "Bakının ilkin olaraq başladığı və bu yaxınlarda canlandırdığı "3+2" platformasının gələcək potensialını necə qiymətləndirirsiniz? Regional tərəfdaşlarla regional problemlərin həlli üçün bu regional platformanın gələcəyini necə görürsünüz?" Azərbaycan Prezidenti bu sualı cavablandırmağa ehtiyac görməyib.

Ceyms O'Brayn isə danışıqlardan sonra "X" hesabında Bakı görüşünü "pozitiv və konstruktiv" adlandırıb və hesab edib ki, "ABŞ-Azərbaycan arasında münasibətlərin gələcəyinə dair ilk konstruktiv söhbət" "regionda davamlı, ləyaqətli sülhün bərqərar edilməsi tarixi imkanlar açacaq". Sonra konkret olaraq yazıb ki, Dövlət katibi Entoni Blinken gözləyir ki, tezliklə Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyanı qəbul edəcək.

Əgər Blinken Vaşinqtonda Bayramovla Mirzoyanı gözləyirsə, deməli, noyabrın 15-də "Ermənistanla sülh sazişi imzalanmayana qədər Azərbaycanla münasibətlər əvvəlki kimi olmayacaq" deyən supergüc 20 gündən sonra mövqeyinə korrektə edib "münasibətlərin əvvəlki axarı"na qayıdır. O'Braynın səfərinə bir gün qalmış Dövlət Departamentinin sözçüsü Metyu Millerin yumşaq mesajı - "ABŞ-ın Azərbaycanla bütün diplomatik əlaqələrdən imtina etməsi regionda sülh və təhlükəsizlik maraqlarına zidd olardı" açıqlaması da bundan xəbər verirdi ki, Vaşinqton "işlərin həmişəki kimi davam etməsi"ni istəyir...

Geosiyasi balans qayıdır, strateji seçim öz işinə gedir, xarici-daxili gərginliklər pauzaya girir – bir sözlə no problem!

*Qəzənfər Həmidoğlu*

## Baş prokurorluq şikayətləri qəbul etməkdən imtina edir

### 161 qaynar xətti 961-ə, 961 isə 161-ə göndərir



9 aydır DSMF-in Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı 1-ci dərəcəli Qarabağ əlili kimi pensiyama 6 il qabaq 05.07.2017 tarixli məhkəmə qərarı ilə ayrılan 110 manatı kəsib , dələduzluqla bərpa etmir. Baş prokurorluğun 161, 961 qaynar xətləri isə şikayəti qəbul etməkdən imtina edir.

11 dekabr 2023-cü ildə 161 qaynar xəttindən Rəşad Məmmədov adlı növbətçi öncə şikayəti qeydə alacağını desə də, yarım saatlıq çənə-boğazdan sonra imtina etdi ki, məhkəmə qərarı ilə ayrılan pensiyaya əlavənin 6 ildən sonra kəsilməsi Cinayət Məcəlləsinin 306-cı maddəsi ilə cinayət işi qaldırılmasına əsasdır, ...amma bu işi Ədliyyə Nazirliyi qaldırmalıdır. Şikayətin korrupsiya ilə bağlı olmadığını bildirən növbətçi prokuror 961-ə şikayət etməyi bildirdi. 961 -dən özünü, tələbimdən sonra, Xankişi(yev) kimi təqdim edən növbətçi isə şikayətin korrupsiya ilə bağlı olduğunu, 161-ə zəng etməli olduğumu vurğuladı.

Lap folklordakı kimidir, "şap elə bilir şupdadı, şup elə bilir şapdadı.." Elə folklorda olduğu kimi, nə "şap"- 161, nə də "şup"-961 şikayəti qəbul etdi. Şikayətin qəbulundan imtina isə qanunla qadağandır. Baş prokurorluğun saytında yerləşdirilən 4920138 və 4925540 stasionar nömrələri isə birincisi susdu, ikincisi "mövcud olmadığını" "bildirdi".

İndi söz baş prokuror Kamran Əliyevdədir, "şap"la "şup"un şikayəti bir-birinə ötürüb, qəbul etməkdən imtinasına hüquqi qiymət vermək onun görəv borcudur.

Baş prokurorluq Konstitusiyanın 133-cü maddəsi ilə üzərinə qoyulan qanunların icrasına nəzarəti gerçəkləşdirəcəkmi? Özü konstitusion müraciət hüququna qadağa qoyursa, çətin...

*Məğrur Bədəlsoy*



## Məmməd Talıblı: “Bakının dərdi var, Bakı xəstədir...”

Normal ölkədə keçmiş zamanda istifadə olunan problemlər zaman-zaman həllini tapır. Anormal ölkələrdə həmin problemlər ağırlaşır, mürəkkəbləşir və yeni-yeni problemlər doğrur. İkinci fikri Bakımız haqqında çox asanlıqla da demək olar.

Əvvəlki illərdə tıxaclar müəyyən saatları əhatə edirdi. Və biz həmin saatlara “pik saatlar” deyirdik. İndi artıq həmin saat intervalı və zaman kəsiyi anlayışı aradan qalxıb. Şəhərimizin az qala bütün sutkasını artıq pik saatlar saymaq olar.

Konkret olaraq son bir ilin müşahidəmi bölüşəcəm. Bir il bundan Xırdalan “20 yanvar” magistal yolundan səhər saatlarından istifadə edirdim. Tıxacların pik saatları var idi. Tıxaca düşməyim deyə sonra alternativ yol olan Binəqədi-Azadlıq prospekti yolundan istifadə etdim. Nisbətən zəif tıxac olurdu.

Sentyabrdan başlayarq yenə Xırdalan-20 yanvar yolundan istifadə etməyə başladım. “Kara baxanda korun vəziyyəti yaxşıdır” deyiminə uyğun olaraq Xərdalan-20 yanvar yoluna qayıtdım. Səbəb çox sadə idi. Binəqədi-Azadlıq da yüklənmişdi.

Daşınmaz əmlak işçiləri ilə apardığım söhbətlərdən belə başa düşdüm ki, Binəqədiyə son 1 ildə Rusiyadan və şəhərin digər yerlərindən kütləvi axın yaranıb. Məndə məcbur qalıb yenə Xırdalan-20 yanvar yoluna keçid etdim.

Nəzərdə tutduğum təyinat nöqtəsinə vaxtında çatmağım üçün bir çarəm qaldı. Saat 8:30-da çatmalı olduğum yerə səhər saat 6-də çıxmalı oluram. 30 dəqiqəlik yolu 90 dəqiqəyə getmək əzabından qurtulmaq üçün 1 saat da səhər saatlarını şəhərimizin səhər xidmətini həyata keçirənləri müşahidə etməklə keçirirəm.

Dənizkənarı bulvarda səhər gəzintisinə çıxıram və s. Səhər saatlarında tək-tənha dolaşdığım saatlarda beynimdə yaranmış suallara cavab tapmağa çalışdım. Həmin sualları düşündüm ki, sizlərlə bölüşüm...

Dövlət büdcəsindən 10 milyard manatla təmir-tikinti və infrastruktur (körpü, tunel, ötücülük qovşaqları və s.) layihələrinə vəsait xərclənib. 2006-cı ildən başlayaraq 2020-ci ilə qədər dövlət büdcə xərclərinin ortalama olaraq hər 100 manatının 30-36 manatı məhz bu məqsədlər üçün sərf edilib.

Bu qədər ictimai vəsaitlərin geninə-boluna xərcləyən hökumət adicə sosial tənzimlənmə problemini həll edə bilməyibsə, bundan sonra daha işğaldan azad olunmuş bölgələrin böyük maliyyə aclığı fonunda paytaxtın tıxac problemi necə həll edəcək sualı mənə xeyli pessimist görünür. Bu məsələdə optimist olanlara özünü aldatmağın ən universal düsturunu təklif edirəm.

Dörd Dövlət proqramının (Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramı) icra olunub qurtardığı (2004-2023) proqram regionlarda paytaxta axını durdura bilməyibsə, bundan sonra olmayacaq proqram və ya məhdud dövlət resursları ilə bu demoqrafik balans necə təmin olunacaq, bu məsələdə də optimist olmaq yerində görünmür.

Rasional düşüncə, məntiqi mühakimə itəndə adi insan hər şeyə inanır. Əksi olanda ali insan adi şeylərə də inanmır.

Mən özümü avam yerinə qoya bilmirəm, bağışlayın...

# "Gəncə Dövlət Universitetinin rektoru bazar açıb"

Gəncə Dövlət Universitetindən gələn şikayətlərin arası kəsilmir. Tədbir görən yoxdur.

Çünki həmin Universitetə Yusif Yusifov rektor təyin olunandan sonra bu təhsil ocağında işlər tam tərsinə gedir.

Təbii ki, Universitetin müəyyən muxtar hüququ var. Amma baxır hansı sahədə? Dərd burasıdır ki, digər Universitetlərdən fərqli olaraq, GDU-da muxtariyyət başqa istiqamətdə istifadə edilir.

Rektor Yusif Yusifovun keyfinin ağası olmadığından o da Universitetdə bacardığı oyunları oynayır. Universitetin professor-müəllim heyəti də qalıb mat-məəttəl ki, hamı fikirləşir ki, belə də rektor olar?!

Sözün qısası, rektor Universiteti dədəsinin mülki kimi, özünə məxsus olan şəxsi təsərrüfat kimi işlədir. Məsələn, Universitetin inzibati təsərrüfat işləri üzrə prorektoru Fəxrəddin Həsənov bir gün də olsa, pedaqoji işlə məşğul olmadığı halda, Yusif Yusifovun köməyilə “Qabaqcıl təhsil işçisi” döş nişanı və ”Əməkdar müəllim” adı almasına.



İllərlə bu Universitetdə can qoyan professorlar, dosentlər, lap elə sıravi müəllimlər qalıb bir qıraqda, ömrü boyu tikintidən başqa bir sahə tanımayan adam bu titula layiq görülürsə, daha Universitetdə gedən proseslərə əlavə şərhə ehtiyac qalmır. Çünki Fəxrəddin Həsənov sökmə, tikmə, təmir məsələlərində çox pərgardır.

Rektor Yusif müəllimin şəxsi kriteriyalarına uyğunluq baxımından əla kadr hesab olunur. Ona görə də pedaqoji işlərlə məşğul olmağa, dərs demək üçün müəllim olmağa ehtiyac qalmır.

Fəxrəddin ”müəllim” də rektorun ümidlərini yaxşı doğruldur. Yusif müəllim gələndən elə hey sökür, tikir, təmir edir, vəsaitləri sağa-sola fırlada bilir. Bir tikiləni bir də tikmək, təmiri təmir üstünə təşkil etməkdən asan yol olmadığından nəticənin necə olacağı da aydındır.

Universitetdə ən çətin həll olunan məsələ odur ki, bu Universitetdə, digərlərindən fərqli olaraq professor-müəllim heyətinin maaşı bir yerdə dayanıb durub. Çünki Fəxrəddin Həsənovun sehrli malası olan qalan vəsiyyəti suvağa çevirib, vurur divarlara, rəngə çevirib bəzək edir.

Dosentlərin maaşı 700 manat, müəllimlərin maaşı 380 manatdan yuxarı qalxmadığı halda, Yusif müəllimin katibəsinin, köməkçisinin maaşları kifayət qədər sürətlə və xeyli məbləğ artır. Anası ölmüş müəllimlər də qalır baxa-baxa.

Universitetdə həll olunmasına ciddi ehtiyac olan ən vacib məsələlərdən biri də bu ali təhsil ocağında əlaçı tələbənin olmamasıdır. Burada təhsil, savad önəmli deyildir. İmtahan zamanı baş yox, başqa şeylər tələb olunduğundan savadlı tələbələr də əlaçı olmaq arzularını Yusif müəllimin obyektlərinin fundamentində dəfn etmək zorunda qalıblar.

Dördüncü məsələ də kifayət qədər müəmmalıdır. İmtahanlara 4-5 ay qalmış Yusif müəllim müəllimlərə tapşırır ki, imtahanda istifadə olunacaq testləri hazırlayıb kafedraya təqdim etsinlər.

Birdən fikirləşərsiniz ki bunun nəyi pisdir? Əslində pis deyil. Pis olan həmin işin arxasında duran niyyətdir. Niyyət də bundan ibarətdir ki, testlər və onların cavabları oxumayan, dərsə gəlməyən tələbələrə ötürülür və onlar da imtahanları “müvəffəqiyyətlə” verirlər. Odur ki belə imkandan ancaq savadsız və oxumaq istəməyən tələbələr yararlanır, oxuyanların isə qiyməti aşağı düşməkdə davam edir.

İmtahan nəticələrini yoxlamaq da dərs deyən müəllimlərə yox, rektorin “qara kassasının” məsləhət bildiyi, ləbbeyk deyən şəxslərə tapşırılır.

Bunu nəzərə alan tələblər də ironiya ilə oxuduqları Universiteti Gəncə Dövlət Universiteti yox, Gəncə Bazar Universiteti adlandırırlar.

Universitetdə başqa, digər həllini gözləyən məsələ ondan ibarətdir ki, GDU-da tələbəni aylığa buraxma çox dəbdir. Məsələn, magistraturada təhsil alan tələbələr 700-800 manat verməklə aylığa buraxılır, tələbdən alınan vəsait dekanla rektor arasında bölünür.

Adının çəkilməsini istəməyən (təqibdən qorunan) magistrlərə dərs deyən müəllimlərdən biri deyir ki, qrupda olan 4 tələbədən 3-ü aylığa buraxılıb, mən 1 nəfələ dərs keçirəm.

Elektron poçta gələn məktub eyni zamanda ölkə başçısına, Təhsil nazirinə, Yusif Yusifovun qardaşı, Maliyyə Nazirliyinin Aparat rəhbəri Cavanşir Yusifova da göndərilib. Amma rektor Yusif Yusifov barədə tədbir görən yoxdur.

Çünki Elm və Təhsil naziri Emin Əmrullayev yerində deyil. GDU-da bu qədər yoxlayıb, yoluna qoymaq halları olmasına baxmayaraq, nazir Universitetdə baş verənləri araşdırıb, tədbir görmür, nazirliyə aid olan üçüncü, dördüncü dərəcəli məsələlərlə məşğuldur.

Əlqərəz, professor-müəllim heyətinin təbirincə desək, Yusif müəllim GDU-da əməlli-başlı bazar açıb. Bu adam təzə rektor təyin olunanda əməlinə görə bir müəllimənin əri tərəfindən əzişdirildikdən sonra indi özünə “telexronitel” də saxlayır.

Təbii ki, bəzi işlər rektorluq olmasa da, yoluna qoyanlar var. Rektor daha böyük işlərlə məşğul olduğundan “qara” işləri həvalə edib “öz adamına”. O da elə səliqəli işləyir ki, gəl görəsən.

Yadınızdadırsa, Yusif müəllimdən əvvəlki rektor Yadigar müəllim Universitetin həyətini satmışdı və orada kafe tikilirdi. Buna etiraz edərək ayağa qalxan professor-müəllim heyətinin təkidli tələbi ilə Yadigar müəllim vəzifədən uzaqlaşdırıldı. Rektor Yusif Yusifov həmin sahəni satıb. Kafe də tikilir. Amma ona bu işə görə, kimsə dillənib bir söz demir. Bilirsiniz niyə? Çünki qardaşı Cavanşir Yusifov Maliyyə Nazirliyində aparat rəhbəridir. Yəni, demək istəyirik ki, kim xəzinəyə rəhbərlik edirsə, söz sahibi də odur.

Bu hələ bildiklərimizin yüzdə biridir, desək, səhv etmərik. Siz də yanılmayın, dəyərli oxucular.

Yanılıb Gəncə Dövlət Universiteti desəniz, əziz gəncəlilər, sizdən inciyərlər. Çalışın ki, Gəncəbazar Universiteti adını yadınızdan çıxarmayın

Bizi izləyin

**P.S.** *Şikayət məktubu elektron poçtla GDU-nun bir qrup professor və müəllim heyəti tərəfindən göndərilib*

# Şarl Mişel: "Mən çox nikbinəm"

**Avropa İttifaqı (Aİ) Azərbaycanla Ermənistan arasında tezliklə sülh sazişinin imzalanması üçün çalışır. Brüssel danışıqları bərpa olunur.**

Bunu Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel "Azadlıq" radiosuna verdiyi müsahibədə deyib.

O bildirib ki, sülh sazişi sərhədlərin delimitasiyasına əsaslanmalıdır. Mişelin sözlərinə görə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin yaradılması yönündə müxtəlif modellər müzakirə mövzusudur. Bundan başqa, o qeyd edib ki, ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə qayıtması, ən azından səfər edə bilməsi üçün imkan yaradılmalıdır.

Şarl Mişel Azərbaycanın güc yolu ilə Zəngəzurdan dəhliz aça biləcəyi ilə bağlı müxtəlif Qərb ölkələri rəsmilərinin narahatlığına da münasibət bildirib.

***– Ermənistan tərəfi yaxın gələcəkdə, hətta bu ilin sonunadək Azərbaycanla sülh sazişinin bağlana biləcəyini istisna etməyib. Sizin gözləntiniz nədir, bu saziş tərəflər arasında birbaşa bağlanacaq, yoxsa beynəlxalq vasitəçilərin dəstəyi ilə?***

Məndən ötrü vacib olan nəticədir. Bilirsiniz ki, biz Azərbaycan və Ermənistanla qarşılıqlı inamın bərpası üçün çox yaxından işləmişik. Məlum olduğu kimi, tərəflər arasında istər tarix, istərsə də bir-birinə münasibət baxımından çox böyük çətinliklər olub. Amma biz müəyyən irəliləyişə də nail olmuşuq və mən çox nikbinəm. Bir neçə gün öncə Azərbaycan və Ermənistan rəhbərliyi birgə açıqlama yayıb. İndi ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və nəqliyyat əlaqələrinin bərpası, bu istiqamətdə modellərin tapılması yönündə çalışmaq məsələsində hər iki tərəfdə siyasi iradə müşahidə hiss olunur. Biz Avropa İttifaqında tərəflər arasında sülh sazişinin imzalanması üçün səy göstərməkdə qərarlıyıq.

– İmzalanacaq sülh sazişində yer alan müddəaların icrası üçün konkret təminatçı olacaqmı?

Beynəlxalq ictimaiyyət, o cümlədən Avropa İttifaqı bu regionda olanları izləyir, çünki Cənubi Qafqaz təhlükəsizlik, iqtisadi inkişaf baxımından nə qədər irəliləyərsə, bu, Avropa İttifaqı, elə dünya üçün də yaxşı olar. Məsələn, biz düşünürük ki, etnik ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə qayıtmaq, ən azından ora səfər etmək haqları təmin edilməlidir. Və beynəlxalq standartlara uyğun olaraq, milli azlıqların təhlükəsizliyinin qorunması baxımından buna təminat verilməlidir. Azərbaycan Konstitusiyasında yer alan milli azlıqların qorunması çərçivəsində buna təminat olmalıdır. Biz həm Nikol Paşinyan, həm də İlham Əliyev ilə bütün çətinliklərin aradan qaldırılması yönündə danışıqlar aparırıq. Mən səmimi şəkildə inanıram ki, bugünlərdə əldə edilmiş irəliləyişin ardınca münasibətlərin normallaşması və bu mühüm regionda təhlükəsizliyin gücləndirilməsi yönündə - doğru istiqamətdə əlavə addımlar atılacaq.

***– Sülh sazişində Qarabağ ermənilərinin hüquqlarına və təhlükəsizliyinə aid ayrıca maddə olacaqmı, yoxsa onların regionu kütləvi tərk etməsi baxımından bu, artıq əhəmiyyətini itirib?***

Mən məsələni qəlizləşdirməmək üçün detallara çox varmaq istəməzdim. Amma indi münasibətləri normallaşdırmaq üçün Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına ehtiyac var. Bu sülh sazişi sərhədlərin delimitasiyasına əsaslanmalıdır. Bu sülh sazişi həm də yaxşı bir çərçivə ola bilər ki, regionda nəqliyyat əlaqələri yaxşılaşsın. Bu, həmin regionda iqtisadi inkişafa müsbət təsir edərdi. Eləcə də başqa ölkələrin, məsələn Gürcüstanın. O ki qaldı Qarabağ ermənilərinə, Avropa İttifaqı bu məsələni hərtərəfli diqqətdə saxlayır, biz bu məsələdə səylər göstəririk. Azərbaycan tərəfini inandırmağa çalışırıq ki, milli azlıqların haqlarının qorunması və beynəlxalq standartlara əməl olunması məsələsində xoş niyyətlərini açıq nümayiş etdirsinlər. Mən səmimi şəkildə inanıram ki, apardığımız bu müzakirələrin nəticə olaraq Avropa İttifaqı üçün prioritet olan bir məsələdə irəliləyişə nail ola bilərik.



***– Sizcə, Qərb ölkələri rəsmilərinin Azərbaycan rəhbərliyinə güc yolu ilə Ermənistan ərazisindən dəhliz açmaqdan çəkinməklə bağlı xəbərdarlıqlarının arxasında nə dayanır? Belə qorxu üçün real əsas varmı?***

– Mən konkret olaraq onu deyərdim ki, Azərbaycanı Naxçıvanla birləşdirəcək nəqliyyat əlaqələrinin müxtəlif modelləri ilə bağlı müzakirələr aparılır. Prezident Əliyev dəfələrlə aydın şəkildə bildirib ki, Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur. Amma konkret modellərlə bağlı müzakirələr aparılır. Elə bir model olmalıdır ki, Ermənistanın ərazi bütövlüyü pozulmasın. Bu konkret mövzulardır ki, müzakirə edilir. Mühüm mövzudur, çünki bu məsələni həll edə bilsək, regionda iqtisadi əməkdaşlığın güclənməsinə və, beləliklə, regionun iqtisadi cəhətdən daha da inkişaf etməsinə nail ola bilərik.

***– Yüksək səviyyədə Azərbaycan-Ermənistan danışıqlarının son ay ərzində dayanmasını, Azərbaycan tərəfinin Avropa İttifaqı və ABŞ-ın vasitəçiliyi ilə danışıqlardan imtinasını necə şərh edərdiniz?***

– Dekabrın 11-də burada Azərbaycanın xarici işlər naziri ilə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi arasında görüş olub. Bu onu göstərir ki, biz hər iki tərəflə daimi kontaktdayıq. Yaxın günlərdə Ermənistanın xarici işlər naziri ilə də görüş olacaq. Biz səhnə arxasında çox fəalıq, həm Azərbaycan, həm də Ermənistanla irəliləyiş əldə olunması üçün ciddi iş aparırıq. Azərbaycan və Ermənistanın birgə açıqlaması həm də ona görə baş tutdu ki, qismən biz də bu işdə iştirak etdik, onlara bu məsələdə kömək etdik, açıqlamada yer alan məsələlərdə mövqelərini yaxınlaşdırmaq üçün onlara müəyyən təkliflər, ideyalar verdik. Biz sülh sazişinin imzalanması yönündə əlavə addımların atılması üzərində işləməyə davam edirik. Eləcə də Brüsseldə baş tuta biləcək görüşlərin təşkili üzərində işləyirik. Amma fikrimizcə, görüşlərin yeri məsələsindən nəticəsi daha vacibdir. Ermənistandakı, Azərbaycandakı insanlar üçün də, bizim üçün də sülh, təhlükəsizlik, firavanlıq daha vacibdir.

Azərbaycan son illərdə Brüsselə yanaşı, Vaşinqton və Moskvanın vasitəçiliyi ilə də Ermənistanla danışıqlar aparıb.

Son aylarda danışıqlar dalana dirənmişdi. Azərbaycan Prezidenti İlham Əliyev Qranadadakı sülh danışıqlarına getməmişdi, bunu Türkiyənin görüşlərdə iştirakına imkan verilməməsi ilə izah etmişdi. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov isə Vaşinqtondakı danışıqlara qatılmamışdı. ABŞ rəsmiləri bildirmişdilər ki, Azərbaycan Ermənistan ərazisindən dəhliz açmağa çalışsa, ABŞ buna qarşı çıxacaq, hətta Azərbaycana birbaşa dövlət yardımını qadağan edən 907-ci düzəlişin bərpa oluna biləcəyi ilə bağlı xəbərdarlıq etmişdilər. Son aylar Ermənistanın baş naziri Nikol Paşinyan da Moskvanın vasitəçiliyi ilə sülh danışıqlarına qatılmamışdı.

**44 günlük müharibə zamanı və ondan sonrakı illərdə Azərbaycan işğal olunmuş bölgələri üzərində nəzarəti tam bərpa edib. Tərəflər bir-birlərinin ərazi bütövlüyünü tanıyan bəyanatlar versələr də, hələ ki sülh sazişi imzalanmayıb.**

# Səbrin hədəfi - ətalət, yoxsa mətanət?! -yazı II

## Səbr: Linqvistik-terminoloji mənası, fəlsəfi məğzi, dini-əxlaqi mahiyyəti və üstün fəzilətləri

***“Sizi qorxu, aclıq, bir az mal, can və məhsul qıtlığı ilə, əlbəttə, imtahan edərik. Səbr edənləri müjdələ!”*** (Quran, əl-Bəqərə 2/155)

***“Tam təvazökarlıq və mülayimliklə, səbrlə davranıb bir-birinizə məhəbbətlə təhəmmül edin!”*** (İncil, Efeslilərə 4:2)

***“Rəbbi səbr edərək gözlədim, mənə tərəf dönərək fəryadımı eşitdi”*** (Tövrat, Məzmur 40/1)

“Allah məruz qaldığı haqsızlığa səbr edənin şərəfini artırar” hədisindəki səbr və təmkin haqsızlığa razı olmaq mənasına gəlmir. Bu, “Yaxşılıqla pislik bir ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et!” (Fussilət surəsi, 41/34) ayəsindəki tövsiyənin tətbiqindən irəli gəlir.

Səbr bütün əxlaqi davranışların fövqündə dayanır. Səbr etmək və əfv etmək asan bir iş deyildir. Sıxıntılara dözmək və başqalarının səhvlərini bağışlamaq, həqiqətən, önəmlidir və səbəb-nəticə baxımından bir-biri ilə yaxından əlaqəlidir.

İman, insanı tövhid inancını zədələyəcək hər cür çirkinlikdən qoruyur. Allahın kamal sifətlərini dərk etmək anlamında olan “əlhamdulillah”la Onun nöqsan sifətlərdən uzaq olduğunu bildirən “subhanəllah” ifadəsi birgə söyləndikdə tam olaraq tövhid inancı dilə gətirilir. Bu təsbih və tənzih kainatın ən böyük və yeganə gerçəyinin etirafıdır. Onun savabı isə yerlə göyün arasını dolduracaq qədərdir.

Şəfqət, yardım, ətrafa qarşı həssaslıq, zəif və kimsəsizləri qorumaq iman əlamətidir. Mərhəmətsizlik, acımasızlıq, haqsızlıq, ədalətsizlik, kobudluq, mənəm-mənəmlik və qəddarlıq dini duyğulardan, məsuliyyətdən, ilahi hüzurdakı hesablaşmaya əhəmiyyət verməməkdən, bir sözlə, imansızlıqdan irəli gəlir.

“Dini yalan sayanı gördünmü? O, yetimi itələyib qovar və əsla yoxsulu yedirtməyə təşviq etməz” (əl-Maun 107/1-3). Ayə bu vəziyyəti açıq şəkildə ortaya qoyur.

Hədisdə səbr “ziya” olaraq təqdim edilir. İşığı və istisi özündən olan cisimlərə “ziya”, işığını başqasından alıb əks etdirən cisimlərə isə “nur” deyilir. Məsələn, Quranі-Kərimdə buyurulur: “Güneşi ziyalı, ayı nurlu edən...Allahdır” (Yunus 10/5). Bu o deməkdir ki, səbr möminin həm dünya, həm də axirət səadətini təmin etmə yolunda özündə təbii olaraq mövcud olan bir işıqdır. Mömin səbr sayəsində bir yandan qadağaların cazibəsinin arxasındakı əsl sıxıntı ünsürlərini görüb onlardan çəkinir, digər yandan da əmrlərin yerinə yetirilməsi üçün qarşıya çıxan çətinliklərin arxasındakı hüzuru sezib məşəqqətlərə səbrlə sinə gərir və nəticədə xoşbəxtliyə qovuşma imkanını əldə edir. İnsana bu iradə gücünü verən də ondakı səbr etmə, dözmə, sinə gərmə qabiliyyətidir. Bir sözlə, inanclı kəs – enerji qaynağı öz daxilində olan bir varlıqdır.

İslam alimləri “bəşəri duyğuların ağıl və şəriət çərçivəsində tutulmasını” səbr kimi tərif etmişlər. Gördüyümüz kimi, ayə və hədislərdə səbr kəlməsi bir neçə mənada işlədilib: ibadətlərin yerinə yetirilməsi və yasaqların tək edilməsinə səbr, bəla və müsibətlərə səbr, xalqın əzab-əziyyətinə səbr, Allaha dəvətdə, yaxşılığı əmr edib, pisliyi qadağan etmədə səbr, döyüş meydanlarında və inkarçılarla mücadilədə səbr və s.

Ola bilsin ki, bəziləri səbri haqsızlıqlara boyun əymək, müqavimət göstərməmək kimi zənn edə bilərlər. Halbuki səbr möminin əsl dinamizminin adıdır. Səbr dayanıqlı olmaqdır, çətinliklərə sinə gərməkdir. Məhz ona görə də, Uca Rəbbimiz möminlərə umduqları qurtuluşa çata bilmələri üçün səbr etmələrini, səbr yarışında düşmənləri ötüb keçmələrini açıqca əmr etmişdir.

Səbr möminin investisiyasıdır. Buna potensial güc də demək mümkündür. Kömək etmələrini gözlədiyin insanlar hər zaman kömək etməyə bilər. Amma unutmamaq lazımdır ki, mömin öz əsl səbr gücü ilə ayaqda duraraq hər cür çətinlikləri dəf edəcək, çatmaq istədiyi hədəfə çatacaqdır. Buna görə də səbrin ziya olduğunu əsla yaddan çıxarmayaraq səbr çırağını daima öndə tutmaq lazımdır. “Bir-birlərinə səbri tövsiyə edənlər”in ziyan və zərərdən qurtulduğunu xəbər verən “Əsr” surəsi müsəlmana edə biləcək ən yaxşı yardımın səbr tövsiyəsi olduğunu əsaslandırmıdır.



Səbrin “ziya”, namazın “nur” deyə tərif edilməsi səbrin insan həyatında hər şeyi əhatə etdiyini göstərir. Çünki “Səbr və zamanın həll etmədiyi məsələ yoxdur”.

Deməli, çətinliklər qarşısında dərhal təslim olmamaq, doğru yolda möhkəm dayanmaq lazımdır. Düyünə düşmüş problemlər belə səbr və zamanla çözümünü tapacaqdır.

Qurani-Kərim hidayət rəhbəridir. Quran ona bağlı qalmağa çalışanların lehinə, “inandım” deyib hökmlərinə riayət etməyənlərin isə əleyhinə bir dəlildir. Yəni müsəlmanlar Qurana görə dəyərləndirilməlidirlər.

Qeyd etdiyimiz hədisin bir-biri ilə rabitəsiz görünən cümlələri arasında, əslində, tam bir uyğunluq və bütünlük vard. Göstərdiyimiz hədisə istinadən aşağıdakıları deyə bilərik:

***1. Mömünin həyatında səbrin yeri son dərəcə önəmlidir. Səbr möminin enerji və işıq qaynağıdır.***

***2. Səbr zəfər və uğurun təməl şərtidir.***

***3. Səbr qatlanmaq deyil, sinə gərməkdir.***

Hz.Peyğəmbərin digər bir hədisinə diqqət edək: Mədinəli müsəlmanların bir qismi Rəsulullahdan (s.a.s.) bir şeylər istəmiş, o isə əlində olanlar bitənə qədər onlara vermişdir. Artıq verə biləcəyi şeylər tükəndikdə onlara belə xitab etmişdir: “Yanımda bir şey olsaydı, onları sizdən əsirgəməz, verərdim. Dilənməkdən çəkinib iffətli davrananın Allah iffətini artırar. Gözütox olmaq istəyəni Allah başqasına möhtac etməz. Səbr etməyə səy edənə Allah səbr verər. Heç kəsə səbrdən daha xeyirli və böyük bir lütf əta edilməmişdir”

Hədisdə maddi ehtiyaclar qarşısında səbrli olmanın fəzilətlərindən bəhs edilir. Sabit bir həqiqətdir ki, Hz.Peyğəmbər müsəlmanların üz tuta biləcəkləri yeganə şəxs idi. Başına bir iş gələn, qəlbi qaralan, ac-susuz qalan, hər hansı bir problemi olan onun yanına qaçar, ondan mədəd dilərdi. Peyğəmbərimiz isə müsəlmanların problemlərini çözməkdən əsla usanmaz, maddi-mənəvi çarələr axtarardı. Hədisdən də göründüyü ki, o, əlində olan hər şeyi verməkdən də vaz keçməzdi. Ancaq müsəlmanların ehtiyacları böyük idi. Onlar yenə də istəməyə davam etdikdə o: “Əlimdə verəcək bir şey olsa, onu sizdən əsla əsirgəməzdim” –deyə vəziyyəti izah edərdi. Peyğəmbərimiz səbr etmənin, yoxsulluğa, sıxıntıya sinə gərmənin insanı daha güclü edəcəyini xəbər verərdi. Səbrin, adəti üzrə, özü-özünü yeniləyən bir özəllik olduğunu təlim edərdi. “Kim səbr etmək üçün səy edərsə, Allah ona səbr verər” açıqlaması səbri təmin edən gücün yenə məhz səbrin özü olduğunu bildirir.

**Unutmaq olmaz ki, istəməklə də bitməyəcək ehtiyaclar ola bilər. Adil və qanunların hökmran olduğu cəmiyyətdə göz və könül toxluğu başqalarının yardımı ilə bir şeylərə qovuşmaqdan daha sağlam və şərəfli yoldur. Buna görə də, hədisin son qismində qəti bir həqiqətə diqqət çəkilir: “Heç kəsə səbrdən daha xeyirli və əngin bir lütf əta edilməmişdir”. Doğrudan da, insanı mərdə, namərdə əl açmaqdan tox tutan səbr ən böyük və ən fəal nemət və ilahi bir lütfdür. Bu lütfdən məhrum olan cəmiyyətlərdə yolsuzluq, haqsızlıq, ədalətsizlik, qanunsuzluq hökm sürdüyündən həmin cəmiyyətlər gec-tez məhvə məhkumdur.**

***Prof. İdris Abbasov***

# Qışın başlanğıcı, böyük çillə, yoxsa, "Şəbi Yelda?




22 dekabr Planetimizin Azərbaycanın da daxil olduğu şimal yarımkürəsində qış fəslinin başlandığı hesab olunur. Məlum olduğu kimi qədim türklər qış fəslini 3 yerə bölürdülər: -"böyük çillə" adlanan 40 gün, "kiçik çillə" adlanan 20 gün və bundan sonra gələn 30 günlük zaman kəsiyi isə "boz ay" adlanırdı.

Təsadüfi deyil ki, dekabr ayının 21-dən 22-nə keçən gecə hətta bu gün də bəzi bölgələrdə "böyük çillə" mərasimi kimi qeyd edilir. Bununla da Novruz mərasimlərinə hazırlıq mərhələləri başlayır.

"Böyük çillə" təxminən fevral ayının ilk gününə kimi davam edir. Şərq aləmində, xüsilə də klassik Şərq poeziyasında ilin ən uzun gecəsi olan 22 dekabr həm də "Şəbi yelda" adlandırılıb. Klassik şeirimizdə şairlər sevgililərinin uzun və qara hörüklərini "şəbi yelda"ya bənzədiblər.

Maraqlı cəhət orasındadır ki, 22 dekabr gecəsi Yer kürəsinin şimal yarımkürəsində ilin 365 gününün ən uzun gecəsi - 14 saat 51 dəqiqə, 38 saniyə davam edən gecəsidir. Həmin gecənin gündüzü isə cəmi 9 saat 9 dəqiqə olur. Astronomların məlumatlarına görə dekabrın 21-dən etibarən Günəş Azərbaycan ərazisinə 26.5 dərəcə bucaq altında düşür.

Bəzi ölkələrdə bu gecəni həm də "Günəşin yenidən doğulması" kimi qəbul edirlər. Şərq alimi Əbu Reyhan Biruni qışın başlanğıcı olan həmin gecəni "böyük bayram" adlandırıb. Xristian aləmində isə bu gecə "Məsihin doğulma günü" (ROJDESTVO) – bayram kimi qeyd edilir. Qədim adət-ənənələrə görə bu gecəninin sonuna, hətta səhərə qədər birlikdə müxtəlif yeməklər, qəlyanaltılar, çərəzlər yeyirlərmiş.

**P.S.** *Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki. Azərbaycanda "Böyük çillə gecəsi" qədim türk mədəniyyətinə xas bir mərasim olsa da İranda "Şəbi yelda" bayramı kimi qeyd olunur. Maraqlıdır ki, İran "Şəbi yelda" bayramını hətta milli mırasim kimi UNESKO səviyyəsində qəbul etdirmişdir.*

# Abbas Səhhət və onun "Vətən" şeiri

Fitrətindəki şairliklə yanaşı həm də peşəkar həkim olan Abbas Səhhətin məşhur "Vətən" şeiri bu mövzuda yazılımış digər yüzlərlə şeir kimi təkcə vətən sevgisi, torpaq təəssübkeşliyi, yurd məhəbbəti ilə bağlı olmayıb daha dərin məna qatına,fəlsəfi dərinliyə, xüsusi kod daşıyıcısına malikdir. Təəssüflər olsun ki, uzun illər boyu istər orta məktəblərdə, istərsə də ali məktəb auiditoriyalarında müəllim və professorlar bu koda əhəmiyyət verməmiş, daha doğrusu onu aça bilməmişlər. Şairin "Vətən" şerinin məzmunu, məna qatı, məntiqi çaları dürüst izah olunmamış, interpretasiyası, izahı dərindən açıqlanmamışdır. Başqa sözlə desək "Vətən" şeirinin fəlsəfi, məntiqi, ədəbi kodu düzgün müəyyən edilməmişdir.

Ədəbiyyat nəzəriyyəsindən məlum olduğu kimi bədii ədəbiyyatda, xüsusilə poeziyada söylənən fikrin emosional təsirini artırmaq üçün adətən təkrirdən – yəni təkrardan istifadə edilməsi ən adi bədii priyomdur.Dünya poeziyasında geniş yayılmış təkrir bədii fikrin ekspressivliyini, emosionalığını, ruhi-psixoloji təsir gücünü artırmaq üçün istifadə edilir. Lakin Abbas Səhhətin "Vətən" şeirində bu sözün üç dəfə təkrarlanması heç də düşündüyümüz kimi təkcə sözün bədii təsir gücünü artırmaq üçün istifadə olunmayıb.Gəlin şeirə bir daha diqqətlə nəzər salaq:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.

Bəli, ilk baxışdan "vətən" sözünün üç dəfə təkrarı guya şeirin təsir gücünü artırmaq,poetik fikrin emosional – ekspressiv təsirini gücləndirmək kimi anlaşılır. Əslində isə şeirin əsas kodu da məhz elə bu "vətən" sözünün nə üçün üç dəfə təkrar olunmasındadır? Məsələ orasındadır ki, Abbas Səhhətə görə hər bir insan özünün fiziki –bioloji mövcudluğu boyu ÜÇ VƏTƏN yaşayır. İnsanın ilk vətəni isə onun cəmi doqquz ay yaşadığı ana bətni hesab olunur. Şeirdə bu fikri təsdiq edən misranı şair belə verib:

Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə (?!) onu,

Burada aydın şəkildə insanın vur-tut 36 -37 həftə yaşadığı İLK VƏTƏNİ olan ana bətninə işarə olunur. Şeirin sonrakı misrası isə belədir:

Südüdür kim dolanıb qanım olub,
O mənim sevgili cananım olub.

Göründüyü kimi bu misrada artıq insanın bu dünyanın nemətlərindən, o cümlədən ana südündən istifadə etməsi ilk vətənindən –ana bətnindən çıxaraq bu dünyaya – İKİNCİ VƏTƏNİNƏ gəlməsi, məlum bir bioloji həyat yaşaması olduqca parlaq və rəngarəng poetik boyalarla tərənnüm olunub. Şair vətən haqqında söylədiyi şeirində həm də belə bir dərin mənalı fikir ifadə edən misra işlədir:




Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.

Məsələ orasındadır ki, şairə görə "əcdadımızın mədfəni" və hazırda yaşadığımız, həm də "övladımızın məskəni olan" vətən insanın əbədiyyətə qovuşacağı (hind fəlsəfəsinə görə Nirvana – əbədi rahatlığa qovuşacağı ÜÇÜNCÜ VƏTƏNİ hesab olunur.

Abbas Səhhətin "VƏTƏN"şeirinin indiyədək sirli qalan əsas kodu da elə budur.

***Cəlal Yaquboğlu***



# Kofe Ləkəsi

**Gecikmək Həsən üçün adət halını almışdı. O hər yerə gecikir, heç bir görüşə vaxtında çatmırdı. Artıq müdiri də onun əlindən təngə gəlmişdi.**

Adətən səhər 7-də zəngli saat çalmağa başlayırdı. Saatlarla səbirsizliklə "qışqırmağı" gözləyən zəngli saatın səsi Həsənin ona toxunması ilə susurdu.

Ancaq bu o demək deyildi ki, çox gec yatan Həsən səhər yatağından vaxtında ayağa qalxırdı. O sadəcə bunu etməyə çalışırdı, lakin hər dəfə eyni şey alınırdı və bu illərlə davam edirdi . Tək yaşayan insanların çoxunun xüsusiyyətlərindən də biri bu idi.

Bu gün o 8-in yarısı-zəngli saat bir daha durmadan çaldıqdan sonra çətinliklə də olsa oyana bildi. Saata baxdıqda qanı qaraldı. Çünki, iş 8:00 -da başlayırdı, iş yeri isə kirayə qaldığı evindən 3 kilometr uzaqda idi. O həmişə işə piyada gedirdi. Bu onun xəstəliyi idi. Həsən tələm-tələsik hazırlanıb özünü bayıra atdı. Sürətli addımlarla getdi ki, işə çox gecikməsin. Səhər yeməyini evdə yemədiyi üçün həmişə yolunun üstündəki "bakery"dən bulka alırdı. Hər gün günəşin doğması onun üçün yarışın başlaması demək idi. Yuxudan gec durduğu üçün işə ildırım sürətilə gedir, işə gec başladığı üçün sürətli işləyirdi ki, işini tez bitirsin. lakin, heç vaxt işi vaxtında bitirə bilmirdi. İşdən gec çıxdığına görə evə tez bir zamanda qayıtmaq istəyirdi ki, heç olmasa bir az da olsa dincəlsin.

Gecə öz yerini gündüzə verir və beləliklə səhər eyni şey təkrar olunurdu . İstirahət günlərini saymasan.

Yarış yenə başladı. Geciksə belə adətindən qalmadı, "bakery"ə yollandı. Yol boyunca başını aşağı salaraq gedən Həsən yan-yörəsindəki insanlara fikir vermirdi. Bunun nəticəsi də pis oldu. Naməlum şəxs onun üzərinə kofe dağıtmışdı. Həsən bir anda əsəbləşdi:

- Lənətə gəlsin. I don't believe it! - əsəbi halda dedi.

- Bağışlayın bilərəkdən etmədim - Naməlum şəxsin azərbaycanca danışdığını gördükdə Həsən sakitləşdi.

- Zərər deyil. Əslində mənim günahımdır. Bu gün işə getməməyim üçün bəhanə olar - o bivec adamlar kimi bunu deyərək arxaya döndü və gəldiyi tərəfə addımlamağa başladı. Yalnız sonra fərqinə vardı ki, üstünə kofe dağıdan həmyerlisi idi və sanki çoxmilyonluq şəhərdə öz həmyerlisi ilə qarşılaşmaq sıradan bir hadisə idi. Buna təəcüblənməməyə görə özünü danladı.

Evə gələn kimi paltarlarını çıxarıb yatağa uzandı. Yuxu onu bir andaca apardı və o yalnız günorta oyandı. Hava aydın və günəşli idi. Pəncərəni açaraq dərindən nəfəs aldı. Günün yaxşı keçəciyini düşündü. Gərgin keçən aylardan sonra ilk dəfə istirahətin mahiyyətini anladı. Radiodan gələn şən musiqi sədaları altında özü üçün yumurta bişirdi. Sonra isə, televizorun qarşısındakı masada süfrəni qurdu və televizoru açdı. Ancaq İlk loxması boğazında qaldı. Televizorda ana xəbərdə onun işlədiyi binanın yanındakı bina ilə birlikdə çökməsini gördü. Həmin gün 11 sentyabr 2001-ci il idi

***Aydın Kərimli***



## “İsrailin beynəlxalq nüfuzu ən aşağı həddə çatıb və müharibə israilliləri xaricdə “izqoya” çevirib”

# "BİZ QALİB GƏLMƏYƏCƏYİK"

## “HƏMAS-ın Qəzza zolağında olmasını istəməyənlər indi onu Fələstin Administrasiyasında görəcəklər”

Oktyabrın 7-də HƏMAS-ın qəfil hücumundan sonra başlayan İsrail-Fələstin münaqişəsinin yeni raundu yaxın gələcəkdə həll ediləcək kimi görünmür. Əksinə, münaqişənin bütövlükdə regiona yayılması ehtimalı artır.

İsrailin “Haaretz” nəşri İsrail dövlətinin Qəzzada düşdüyü durumu və ümumilikdə bu müharibənin mümkün perspektivini təhlil edən maraqlı məqalə dərc edib.

Həmin yazını müəyyən ixtisarlarla təqdim edirik: “Biz qalib gəlməyəcəyik. Əməliyyatların hər növbəti günü yalnız uğursuzluqları artırır. Bu dəhşətli müharibə başa çatdıqda, İsrail HƏMAS-ın hücumundan dərhal sonra olduğundan daha pis vəziyyətə düşəcək. Bəs bu uğursuzluq yaxşı nəyəsə gətirib çıxara bilərmi? Bəlkə o, İsrail-Fələstin münaqişəsinin sonunu gətirə bilər?

Oktyabrın 16-da Hərbi Nazirlər Kabineti müharibənin məqsədlərini açıqladı:

***-Qəzza zolağında HƏMAS-ın hakimiyyətinə son qoymaq və onun hərbi imkanlarını məhv etmək;***

***-Qəzza zolağından İsrailə qarşı terror təhlükəsini aradan qaldırmaq;***

***- girov problemini həll etmək və İsrail sərhədlərini və vətəndaşlarını qorumaq üçün hər cür səy göstərmək.***

Müharibə bitəndə biz bu məqsədlərin heç birinə nail olmayacağıq. Rəy sorğuları indi göstərir ki, Qəzza zolağındakı hərəkətlərimiz HƏMAS-ın təkcə Qəzza zolağında deyil, həm də İordan çayının qərb sahilindəki fələstinlilər arasında statusunu gücləndirir. HƏMAS-ın Qəzza zolağında olmasını istəməyənlər indi onu Fələstin Administrasiyasında görəcəklər.



Girovlara gəlincə, onların yalnız yarısından azı azad edilib və hər gün əlavə döyüşlər əsirlikdə qalanların əksəriyyətinin həyatını riskə atır. Əgər onların azad edilməsi ilə bağlı razılıq əldə olunarsa, biz nəinki İsraildə saxlanılan bütün fələstinliləri, o cümlədən əlləri qana bulaşanları da azad etməli, qoşunlarımızı geri çəkməli və müharibəni dayandırmağı öhdəmizə götürməli olacağıq.

HƏMAS liderləri axmaq deyillər və onlar daha azı ilə kifayətlənməyəcəklər. Bu sövdələşməyə sponsorluq edən dostlarımız İsrailin daha sonra hücumlarını bərpa etməyəcəyinə dair zəmanət verməli olacaqlar...



“HƏMAS liderləri axmaq deyillər və...”

İsrailin beynəlxalq nüfuzu artıq heç vaxt olmadığı qədər ən aşağı həddə çatıb. Bu, təkcə onun dostları, xüsusən də ABŞ ilə əlaqələrini deyil, həm də bütün dünyadakı yəhudi icmalarını təhlükə altına alıb və israilliləri xaricdə “izqoya” çevirib. Regiondakı digər ölkələr arasında da mövqelərimiz kəskin şəkildə pisləşib.

Bununla belə, on minlərlə fələstinlinin öldürüldüyünü və yaralandığını, dəhşətli ölçülərə çatan maddi və humanitar dağıntıları nəzərə alaraq, İsraili Qəzza zolağında müharibəni tezliklə dayandırmağa məcbur edəcək sülhün məsələnin həllinə imkan verəcəyini təsəvvür etmək çətindir...

İsrail fələstinlilərin suveren, müstəqil dövlət hüququnu tanımağa, eləcə də BMT-nin qətnamələri və Səudiyyə Ərəbistanının sülh təşəbbüsü əsasında münaqişəni dayandırmaq üçün fələstinlilərin seçdikləri istənilən rəhbərliklə danışıqlar aparmağa məcbur olacaq”.

***C. Məmmədov***



# Məşuqə yatağında ölən məşhurlar

## Onların arasında Fransa prezidenti də var

**El arasında tez-tez işlədilən belə bir ifadə var – alın yazısı. Bu ifadə xüsusilə vəfat etmiş adamlar üçün daha çox işlədilir. Belə bir ifadə də var ki, əcəl gələndə aparacağı adamın kimliyinə, statusuna da baxmır. Heç harada və nə işlə məşğul olduğunu da nəzərə almır...**

Statistik göstəricilərə görə, hər il dünyada təxminən 45-50 min nəfər intim münasibətdə olduğu zaman ölür. Bu statistikada kişilərin 25 faizi öz həyat yoldaşları ilə, 75 faizi isə fahişə və məşuqələrlə cinsi əlaqə zamanı ömürlərinin son akkordlarını vururlar. İntim münasibət zamanı ölüm riski kişilərə nisbətən qadınlarda 12 dəfə azdır.

İntim münasibətdə olduqları zaman dünyalarını dəyişən insanların arasında tanınmış məşhurlar da var.

Məşhurların həyatında intim əlaqə zamanı daha çox səs-küyə səbəb olan ölüm faktı 1899-cu ildə qeydə alınıb. Fransa prezidenti Feliks For işdən sonra tez-tez ziyarət etdiyi fahişəxanaya, məşuqəsi Marqarit Stenelin görüşünə gedib. İntim əlaqənin elə ilk dəqiqələrində Feliks For ölüb. Bu hadisəyə görə məşuqə cəzalandırılmayıb. Amma bu səsli-küylü hadisədən sonra Marqarit Stenel müştərilərini birdəfəlik itirib.



Nelson Rokfeller

Amerika Birləşmiş Ştatlarının keçmiş vitse-prezidenti Nelson Rokfeller 70 yaşında belə, ehtiraslarını cilovlaya bilməyib.

Məhz ömrünün bu yaşında vitse-prezident öz məşuqəsi ilə cinsi əlaqədə olanda ehtiraslarının çılğınlığından ürəyi dayanıb və ömrünün son dəqiqələrini məşuqəsinin qoynunda keçirib. Nelson Rokfellerin ölüm haqqında şəhadətnaməsində də bu öz əksini tapıb.

Çilinin tanınmış siyasətçisi Raul Velosonun həyatı da yataqda sona çatıb.

Siyasətçi intim münasibətdə olduğu zaman dünyasını dəyişib. Ancaq onun ölümü deputat seçkilərində qələbə qazanmağına mane olmayıb. Belə ki, Humanistlər Partiyasından parlament seçkilərinə namizədliyi irəli sürülən Raul Velosonun adı səhvən siyahıdan çıxarılmayıb. Seçki günü seks qurbanı olan siyasətçi səs çoxluğu ilə parlamentin "ölü deputatı" seçilib.

1865-ci ilin oktyabrında cinsi əlaqə daha bir məşhur siyasətçinin həyatına son qoyub. İngiltərənin baş naziri Henri Palmerston xidmətçisi ilə bilyard masasının üstündə cinsi əlaqə zamanı vəfat edib.

Məşhur aktyor Devid Kerradayn 2009-cu ildə Banqkokda vəfat edib. Onun ölümünün səbəbi də ifrat dərəcədə sekslə məşğul olmağı olub. Digərlərindən fərqli olaraq, aktyor sekslə tək məşğul olmağa üstünlük verib.

Errol Flinn 1930-1940-cı illərdə Hollivudun ən məşhur kino ulduzlarından biri sayılıb. Ancaq aktyorun ulduz həyatı 50 yaşında sona çatıb. O, 15 yaşlı Beverli Adlendlə eşq macərası yaşayıb. Münasibətlərinin ikinci ilində Errol Flinn məşuqəsi ilə intim münasibət zamanı dünyasını dəyişib.

**İntim münasibət insan sağlamlığı üçün vacib şərtlərdən biridir və o, həm də həzz mənbəyidir. Amma bu sahə ilə bağlı ən sadə bilgilərə malik olmamaq göründüyü kimi, insanın həm həzzinə, həm də həyatına birdəfəlik son qoyur.**

# Stalinin etimad göstərdiyi ordu generalı

## Adı Beriya ilə çəkilən Maslennikov özünü güllələyib

Müharibənin 12-ci günü, 3 iyul 1941-ci ildə o, Kremlə dəvət olunub. Kliment Voroşilovun, Lavrenti Beriyanın, Vyaçeclav Molotovun iştirakı ilə İosif Stalin general-leytenant İvan Maslennikovu qəbul edib. 25 dəqiqəlik görüşdə 29-cu ordunun yaradılması ilə bağlı konkret təkliflər səsləndirilib və Maslennikovun bu orduya komandan təyin olunması qərarı verilib. General göstərilən etmada görə Ali Baş Komandana minnətdarlığını bildirəndə Stalin onun sözünü yarımçıq kəsib:

- Etimad öz yerində, amma onu da bilməlisiniz ki, ən qısa müddətdə 29-cu ordu tam formalaşaraq düşmən qüvvələri qarşısaında dayanmağa hazır olmalıdır...

Sonralar Maslennikov həmin görüş haqqında xatirələrində yazıb:

***"Onda mənim 41 yaşım var idi. Stalinlə nə vaxtsa üzbəüz görüşməyimi ağlıma belə gətirmirdim. Onun haqqında həmişə belə ifadələr işlədilirdi, kobud, sərt, qəddar, amansız. Amma mən bu görüşdə bunların heç birini hiss etmədim. Müharibənin ən ağır günləri idi. Mənə elə gəlirdi ki, həmin ərəfədə Stalin böyük sıxıntılar keçirirdi, gərginlik içində idi. Hətta bəlkə də bir az da yazıqlaşmışdı. Yeni yaradılacaq ordu ilə bağlı fikirlrimi, təkliflərimi söylyərkən, o məndən ümidli sözlər gözləyirdi, mən bunu hiss edirdim və onu da hiss edirdim ki, müharubənin hər dəqiqəsi Stalinə bir il qədər uzun gəlirdi..."***

Maslennikov Kremlin, şəxsən Stalinin ondan gözləntilərini doğruldub. Ümumiyyətlə, general xidmətinin bütün dövrlərində vəzifəsinin öhdəsindən layiqincə gəlib.

İvan Maslennikov 1900-cü ildə Saratovda anadan olub. İki illik təhsildən sonra çox erkən yaşlarından əmək fəaliyyətinə başlayıb. Poçtda, dəmiryolu stansiyasında işləyib. 1918-ci ildə ordu sıralarına xidmətə yollanıb. Vətəndaş müharibəsinin iştirakçısı olub.

Altı aylıq hərbi kursları bitirdikdən sonra İvan Maslennikov 1-ci Ukrayna diviziyasında rabitə komandiri vəzifəsini daşıyıb. Bir müddət sonra Frunze adına Hərbi Akademiyada ali təhsil alıb. 1936-cı ildə "NKVD"-nin sərhəd və daxili qoşunlarının döyüş hazırlığı idarəsi rəisinin köməkçisi işləyib.

1937-ci ilin yanvar ayında Maslennikov Azərbaycana göndərilib, burada o, əvvəlcə "NKVD"-nin sərhəd və daxili qoşunlarının döyüş hazırlığı idarəsinin rəisi, daha sonra isə sərhəd və daxili qoşunlar baş idarəsinin rəis müavini vəzifəsində xidmət edib.

1938-ci ildə Maslennikov Bakıdan Moskvaya qayıdıb və "NKVD"-nin sərhəd qoşunlarının komandanı təyin olunub. 1939-cu ilin yanvar ayından Maslennikov "NKVD" komissarının (nazirinin) sərhəd və daxili qoşunlar üzrə müavini vəzifəsinə təyinat alıb.

Məhz elə, 29-cu ordunun əsas şəxsi heyəti də "NKVD" qoşunlarının hesabına formalaşıb.

Müharibənin ən ağır cəbhələrində İvan Maslennikov ən uğurlu hərbi əməliyyatlarla fərqlənib. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən komandan ordu generalı rütbəsinə qədər yüksəlib.

1945-ci ildə Maslennikov Bakı hərbi dairəsinin, 1946-cı ildə isə Qafqaz hərbi dairəsinin komandanı olub. Məhz 1945-ci ildə Bakı qarnizonu qoşunlarının hərbi paradını Maslennikov qəbul edib.

1948-ci ildə ordu generalı İvan Maslennikov SSRİ daxili işlər nazirinin müavini təyin edilib, həmçinin nazir müavini kimi daxili qoşunların kuratoru olub.

Maslennikovun uğurlu hərbi karyerası acı bir sonluqla yekunlaşıb. O, 16 aprel 1954-cü ildə kabinetdə özünün güllələyərək intihar edib.

Generalın intiharı hamı üçün gözlənilməz olub. Heç bir qalmaqallı hadisədə adı hallanmayan, hətta uzun illər Beriyanın tabeliyində işləməsinə baxmayaraq onunla xidməti münasibətlərdən başqa heç bir əlaqəsi olmayan Maslennikovun intiharı müəmmalarla qarşılanıb.

General-leytenant Sudoplatov öz xatirələrində Maslennikovun intiharı ilə bağlı yazıb: *"Maslennikov özünü öz kabinetində güllələdi. Bu gözlənilməz bir hadisə idi. Onun nəyə görə bu addımı atdığını mən təxmini bilirəm. Belə söhbətlər dolaşırdı ki, Beriyanın işi ilə bağlı onu istintaqa cəlb ediblər və guya ki, Beriyanın planında*

*Maslennikovun vasitəsi ilə daxili qoşunları Kremlə yeridərək hakimiyyəti ələ almaq məsələsi olub. Yəqin ki, Maslennikov belə düşünüb ki, onu da həbs edəcəklər. Və yəqin ki, Maslennikov general mundirində həbsxanaya girməsini özünə sığışdırmayıb. Bəli, əsl generallar bu cür qərar verirlər..."*



Marşal Georgi Jukov da öz xatirələrində Maslennikov haqqında fikirlərini bölüşüb: *"Maslennikov Silahlı Qüvvələrdə ən peşəkar, hərb elminin incəliklərini bilən generallardan biri idi. Onun keçirdiyi döyüş əməliyyatları zərgər dəqiqliyi ilə yerinə yetirilirdi. Bu ona görə dəqiq olurdu ki, Maslennikov səhra şəraitində nəzəri bilikləri tətbiq etməyi bacarırdı. Ən əsası isə Maslennikov öz işi ilə məşğul olan hərbçilərdən idi. Siyasətdən və konfliktlərdən uzaq olan hərbçi. Onun aramızdan belə tezliklə getməsi məni çox təəssüfləndirir..."*

İvan Maslennikov intihar edəndə 53 yaşı olub. Ordu generalını Moskvada, Vaqankova qəbirstanlığında dəfn ediblər.

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 071 (3641) 28 dekabr 2023-cü il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


## Ucuz qiymət, aşağı keyfiyyət: Bir manata canımızı necə təhlükəyə atırıq?



Açıq havada hazırlanan və satılan qida məhsullarından təəssüf ki, hər birimiz zaman-zaman istifadə edirik. Xüsusilə də küçədə, yol kənarlarında üstüaçıq şəkildə insanlara təqdim olunan bu yeməklərin sanitariya qaydalarına nə qədər uyğun olduğu şübhə doğurur. Bu kimi qidalar arasından insanlar hazırda ən çox dönərə üstünlük verir. Bəzi yerlərdə isə onun hazırlanmasında toyuq və ya mal ətindən yox, at ətindən də istifadə edirlər.

*Maraqlıdır, belə olan halda dönər alarkən nələrə fikir verməliyik?*

Məsələ ilə bağlı sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova açıqlamasında bildirib ki, peraşki, dönər, bulka, qamburger kimi səyyar çörəkarası hazırlanan yeməklər hazırda risk qrupu altındadır.

Onun sözlərinə görə, ehtiyac olmadıqda bu kimi qidaların istehlakı məsləhətli deyil: *"Xüsusilə də dönərin hazırlanmasında mənşəyi bilinməyən, ucuz, xəstə heyvan ətlərindən istifadə olunur. Bu ətlər səhərdən axşama qədər açıqda, hər zaman istiyə məruz qalacaq şəkildə alovun yanında saxlanılır. Bu ət sağlam olsa belə bu şəraitdə saxlanılması onun tərkibinin həm mikrobioloji, həm də kimyəvi dəyişikliyə məruz qalmasına səbəb olur. Həmçinin satışı həyata keçirən insanlar sanitar-gigiyena qaydalarına əməl etmir. Beləliklə, həmin dönərlər fiziki çirklənməyə məruz qalır. Belə olan halda həmin qidaları istehlak edən şəxslərə heyvandan xəstəlik yoluxur. Ətlərdəki mikroblar və viruslar orqanizmə daxil olaraq həzm sisteminin pozulmasına və orqanların zədələnməsinə səbəb olur. Bəzən həmin qidaları yedikdə mədədə ağırlıq, şişkinlik, ağrı, ishal və ya qəbzliklə müşahidə olunur. Əgər, bu cür qidaları 25 yaşına qədər insanlar gündəlik olaraq qəbul edirsə, bu zaman təhlükə iki qat artır. Çünki həmin insanlar inkişaf prosesində olduğu üçün bu cür qidalar onların həm əqli, həm də fiziki cəhətdən inkişafına mənfi təsir göstərir".*

Məhsəti Hüseynova fikirlərinə davam edərək həmçinin qeyd edib ki, ayaqüstü yeməklərdə dadlandırıcı kimi bir çox kimyəvi maddələrdən istifadə olunur: *"Həmin qidalardan istifadə edən şəxslər ənənəvi keyfiyyətli qidaların dadından zövq ala bilmirlər. El arasında Çin duzu kimi tanınan monosodium qlutomat və yaxud mononatrium qlütamatın və sintetik mənşəlilərin adını çəkmək olar. Bu maddə birbaşa olaraq asılılıq yaradır və ağızda ənənəvi dad reseptorlarını məhv edərək beşinci yeni - umami dadını yaradır. Bu cür qidalardan istifadə edən insanlar çox tez doyurlar, lakin bu toxluq hissi qısa zamanda yoxa çıxır. Ona görə də həmin insanlar daima özlərini ac hiss edirlər. Dönərin ucuz qiymətə satılması əlçatanlığı təmin etmək üçün olsa da, bu qidalar birbaşa olaraq təhlükəli xəstəliklərin mənbəyidir. Sahibkarlar daha az pul xərcləyərək böyük gəlir əldə etmək istəyirlər və buna görə də keyfiyyətsiz məhsullardan istifadə edirlər. Bütün hallarda istehlakçı bilməlidir ki, mənşəyi bəlli olmayan qidadan istifadə etmək onun həyatı üçün təhlükədir".*



## Bu 3 növ xərçəngdə bağırsaq əlamətləri olur

**Bəzi xərçəng növlərində pasiyentlər daha çox bağırsaq işində pozulmadan şikayətlənir.**

Xərçəng çox zaman başqa əlamətlərlə maskalanır, ciddi təhlükə yaratmır.

Adətən bu 3 xərçəngdə bağırsaq funksiyası pozulur.

Bunlar mədəaltı vəz xərçəngi, yumurtalıq və bağırsağın müxtəlif seqmentlərinin şişləridir. Pasiyentlər daha çox qarında köp, şişkinlik, qəbzlik, ishal, ağrıdan şikayətlənir.

Mədəaltı vəz şişində həzmsizlik, bəzi qidaların həll olmadan xarici, müəyyən qidaları yeyəndə ağrı olur.

Yumurtalıqda qəbizlik və ya ishal olur. Eləcə də qarından belə doğru yayılan ağrı.

## Oturaq həyat tərzinin uşaqlara təsiri nələrdir?

**Finlandiyalı tədqiqatçı 13 il ərzində fiziki aktivliyin olmamasının uşaqların sağlamlığına təsiri ilə bağlı ciddi elmi araşdırmalar aparıb. Oturaq həyat tərzinin bütün təhlükələrinə baxmayaraq, alim bir müsbət xəbəri qeyd edib.**

Tapıntıları göstərib ki, aşağı fəaliyyətə öyrəşmiş uşaqlarda qanda xolesterinin səviyyəsi əhəmiyyətli dərəcədə artıb. Eyni zamanda alim bu prosesə təsir etməyin sadə üsulunu da müəyyən edib.

Əksər elmi araşdırmalar böyüklər arasında oturaq davranışın zərərlərinə diqqət yetirərkən, uşaqlara təsiri isə daha az diqqət yetirilir. Şərqi Finlandiya Universitetindən doktor Endryu oturaq həyat tərzinin yeniyetmələr və uşaqlara təsirinin öyrənilməsi qərarına gəlib.

Tədqiqatın başlanğıcında orta yaşı 11,7 olan 792 uşaq 24 yaşa qədər izlənib. Alimlər akselerometrdən istifadə edərək 11, 15 və 24 yaşlarında uşaqların oturaq vəziyyətdə oturaraq keçirdikləri vaxtın miqdarını ölçüblər.



Təcrübə iştirakçıları mütəmadi olaraq qanda xolesterinin, yüksək və aşağı sıxlıqlı lipoproteinlərin, triqliseridlərin, qlükoza, insulin və yüksək həssas C-reaktiv zülalın səviyyəsinə dair testlərdən keçiblər. Tədqiqatçılar rentgen absorbsiometriyasından istifadə edərək tədqiqat iştirakçılarının ümumi yağ və əzələ kütləsini ölçüblər.

Təcrübə zamanı iştirakçılar oturaq vəziyyətdə sərf olunan vaxtı əhəmiyyətli dərəcədə artırıblar - gündə 6 saatdan 9 saata qədər, ümumi fiziki fəaliyyət isə gündə 6 saatdan 3 saata qədər azalıb. Xolesterol səviyyəsi orta hesabla litr başına 0,69 ml artıb. Alim bu qənaətə gəlib ki, oturaq həyat tərzinə üstünlük verən uşaqlarda ümumi xolesterinin səviyyəsi 67% yüksəlib.

Bununla belə, bəzi müsbət xəbərlər də var idi: alim uşaqlıqdan 24 yaşa qədər gündə təxminən 4,5 saat fiziki aktiv qalan iştirakçılarda ümumi xolesterinin litr başına 0,53 millimol azaldığını aşkar edib. Məlum olub ki, piylənmə bu prosesə təsir edir, fiziki fəaliyyətin xolesterin səviyyəsinə müsbət təsirini azaldır.


*Təsisçi:*

Tapdıq Abbas

*Baş redaktor:*

Akif Nəsirli

*Birinci müavin:*

Şahnaz Salehqızı

*İnformasiya şöbəsinin müdiri:*

Röyal Əsədli

*Bölgə müxbirləri:*

Vaqif Cəmiloğlu
Sadıq Sadıqov
Fərman Məhəmməd Əzizli

İqbal Məmmədov
İlkin Əsədzadə

*Qəzet 16 fevral 2003-cü ildən çıxır.*

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı

E_mail: paralel_qazeta@mail.ru

*Qəzet Vüqar Tofiqoğlu mətbəəsində çap olunur.*

Əlyazmalara rəy verilmir və geri qaytarılmır.

Qeydiyyat №257

Sifariş: **2185** Tiraj: **1550**